**ƏMR**

№ SOCAR201000030300040020A00079

**SOCAR**
Heydər Əliyev pr.121
AZ 1029, Azərbaycan,Bakı
Tel: (99412)521 03 32
Faks:(99412)521 03 83
e-mail:info@socar.az
www.socar.az

Bakı, 22 Aprel 2020

# SOCAR-ın Koronavirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində Biznesin Davamlılığının təminatı üzrə Proqramının təsdiq edilməsi barədə

2019-cu ilin dekabr ayında Çin Xalq Respublikasında aşkar olunan "Covid-19" adlı virus 2020-ci ilin yanvar ayından etibarən dünyada sürətlə yayılmağa başlamışdır. 11 mart 2020-ci il tarixində Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən "Covid-19" adlı virus "Pandemiya" elan edilmişdir. "Covid-19" virusunun qlobal şəkildə yayılması nəticəsində dünya dövlətləri tərəfindən yoluxmaların qarşısının alınması və vətəndaşlara təsirinin azaldılması məqsədilə bir sıra addımlar atılmaqdadır. Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında ölkəmizdə əhalinin pandemiyadan daha az zərərlə çıxması məqsədilə həyata keçirilən intensiv tədbirlərin davamı olaraq, SOCAR da öz əməkdaşları arasında COVİD-19 virusunun yayılmasının qarşısının alınması və onların əmək şəraitinin müvafiq qaydada uyğunlaşdırılması məqsədilə Koronavirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində Biznesin Davamlılığının təminatı üzrə Proqram işləyib hazırlamışdır.

Qeyd olunanları nəzərə alaraq, SOCAR-ın Koronavirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində Biznesin Davamlılığının təminatı üzrə Proqramının təsdiq edilməsi məqsədilə

ƏMR EDİRƏM:

1. SOCAR-ın Koronavirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində Biznesin Davamlılığının təminatı üzrə Proqramı (Proqram) təsdiq edilsin (əmrə əlavə olunur).
2. SOCAR-ın Baş Ofisinin struktur bölmələrinin və SOCAR-ın strukturuna daxil olan qurumların rəhbərlərinə tapşırılsın:
   2.1. Proqram ilə müəyyən edilmiş istiqamətlər üzrə tapşırıqların icrasını təmin etsinlər;
   2.2. SOCAR-ın mövcud daxili normativ sənədlərinin bu əmr ilə təsdiq olunmuş Proqrama uyğunlaşdırılması ilə bağlı təkliflərini SOCAR-ın Baş Ofisinin Hüquq İdarəsinə təqdim etsinlər;
   2.3.Bu əmrlə təsdiq edilmiş Proqramın icrasından irəli gələn digər məsələləri həll etsinlər.
3. SOCAR-ın Baş Ofisinin Hüquq İdarəsinə (E.Orucov) tapşırılsın ki, əmrin 2.2 bəndinə uyğun olaraq təqdim edilmiş təkliflərin ümumiləşdirilməsini, razılaşdırılmasını və təsdiq edilmək üçün SOCAR-ın prezidentinə təqdim edilməsini təmin etsin.

4. SOCAR-ın İnformasiya Texnologiyaları Departamentinə tapşırılsın ki, SOCAR-ın Koronavirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində Biznesin Davamlılığının təminatı üzrə Proqramının Azərbaycan dilində olan versiyasının SOCAR-ın rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**Prezident** **Rövnəq Abdullayev**

**SOCAR-ın prezidenti Rövnəq Abdullayevin neftçilərə və onların ailə üzvlərinə müraciəti**

Əziz SOCAR ailəsinin üzvləri!

Qlobal miqyaslı ciddi təhlükə mənbəyi olan koronovirus pandemiyası bütün bəşəriyyəti yeni çağırış və sınaqlar qarşısında qoymuşdur. Bütün ölkələr kimi, Azərbaycan da virusun ölkə ərazisində yayılmasının qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi məqsədi ilə zəruri addımlar atır. Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyev cənablarının bilavasitə rəhbərliyi altında ölkəmizdə əhalinin pandemiyadan daha az zərərlə çıxmağa yönəlmiş intensiv tədbirlər həyata keçirilməkdədir. Bütün dövlət qurumları, resurslar və qüvvələr bu məqsədlə səfərbərliyə alınıb. Martın 24-dən mayın 4-dək Azərbaycanda xüsusi karantin rejimi elan olunmuş, martın 29-dan isə bu rejim bir qədər də gücləndirilmişdir. Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargahın bu və başqa tədbirləri yalnız və yalnız bir məqsədə - Azərbaycan insanının sağlamlığına və rifahına xidmət edir.

Əziz neftçilər,

Sizlərin bir çoxu bu gün ölkədə karantin rejiminin elan olunmasına baxmayaraq iş başındasınız, ölkəmizin iqtisadi qüdrətinin möhkəmlənməsi naminə yorulmaq bilmədən çalışırsınız. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin əməkdaşları dünya neft sənayesinin, dənizdə neftçıxarmanın və bir çox qlobal əhəmiyyətli tarixi innovasiyaların beşiyi başında dayanmış qəhrəman neftçi nəsillərinin layiqli varisləridir və onların ən mütərəqqi tarixi ənənələrini qoruyub saxlayır, inkişaf etdirir. Neftçilərin birliyi, lazım gəldikdə bir yumruq kimi birləşməsi, dostluqda möhkəmliyi, yoldaşlıqda sədaqəti, ekstremal situasiyalarda həmrəyliyi, yardımlaşma bacarığı hamıya yaxşı məlumdur. Bu mənəvi dəyərlər bizə sələflərimizdən qalan ən qiymətli mirasdır və çoxminli SOCAR ailəsinin hər bir üzvünün bu dəyərlərə sadiq olduğuna zərrə qədər şübhə yoxdur. Bəli, biz böyük, möhtəşəm və mehriban bir ailəyik. Bu çətin günlərdə sizin hər birinizin və ailənizin sağlamlığı şəxsən mənim üçün və SOCAR rəhbərliyi üçün prioritet vəzifədir. Bunun üçün bütün lazımi tədbirlər görülmüşdür və görülməkdə davam edir. Koronavirus

pandemiyası ilə əlaqədar SOCAR strukturlarında çalışan əməkdaşların böyük bir qismi şirkətimizdə uğurla tətbiq olunan müasir texnologiyaların verdiyi imkanlar daxilində evdən işləməyə cəlb edilmişlər. Fəaliyyətlərini daimi iş yerlərində davam etdirən əməkdaşlarımız üçün də təhlükəsiz və lazımi şərait yaradılmışdır. Bütün istehsalat sahələrimizdə mövcud təlimat və normalara ən ciddi şəkildə əməl olunur. Zərurət qarşısında əməkdaşların fasiləsiz çalışmalı olduqları dəniz mədənlərində əmək növbələrinin dəyişilməsi sona çatmaqdadır. Bu günlərdə mən şəxsən bir neçə iri müəssisəmizə, o cümlədən, Neft Daşlarına baş çəkmiş, həmkarlarımızın iş şəraitləri ilə yerində tanış olmuş, istehsalat sahələrində sanitar-epidemoloji vəziyyətin tam həcmdə nəzarət altında olduğunu şəxsən müşahidə etmişəm.

Dəyərli həmkarlar, əziz neftçilər!

Bu günə kimi virusla mübarizə sahəsində görülən işlər onu göstərir ki, Azərbaycan dövləti bu məsələyə çox həssas yanaşır və daim öz vətəndaşlarının yanındadır. Burada, biz vətəndaşların üzərinə böyük məsuliyyət düşür. Hər birimiz dövlətimizə güvənməli, özümüzün və yaxınlarımızın səhhətinə biganə qalmamalı, yüksək səviyyədə görülən tədbirləri dəstəkləməliyik. Xüsusilə qeyd etmək istəyirəm ki, əməkdaşlarımıza verilmiş buraxılış vərəqələri onların iş yerinə rahat şəkildə gedib-gəlməsi üçün nəzərdə tutulmuşdur və sırf bu məqsədlər üçün istifadə edilməlidir. Azərbaycan neftçiləri hər zaman dövlətin qəbul etdiyi qanunlara, qərarlara hörmətlə yanaşmışdır. Bunu nəzərə alaraq, hazırki dövrün tələblərinə, qoyulan qaydalara hamılıqla əməl edəriksə, həm özümüzü, həm də yaxınlarımızı təhlükədən qoruya bilərik. Müvəqqəti çətinlik dövründə hər birinizi səbr, dözüm və əzmkarlıq göstərməyə, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün tələb və tövsiyələrinə, eləcə də karantin rejiminin tələblərinə maksimum riayət etməyə çağırıram.

**Hörmətlə,**

**Rövnəq Abdullayev**

**SOCAR-ın prezidenti**

# KORONAVİRUS (COVİD-19) PANDEMİYASI İLƏ MÜBARİZƏ ÇƏRÇİVƏSİNDƏ BİZNESİN DAVAMLILIĞININ TƏMİNATI ÜZRƏ PROQRAM

SOCAR

**KORONAVİRUS (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində BİZNESİN DAVAMLILIĞININ təminatı ÜZRƏ PROQRAM**

**Mündəricat**


A. ÜMUMİ MÜDDƏALAR
B. DƏNİZDƏ ÇALIŞANLAR ÜÇÜN GÜCLƏNDİRİLMİŞ KARANTİN REJİMİ TƏLƏBLƏRİ (OFŞOR SƏFƏRLƏR)
C. SOCAR BAŞ OFİSİNİN VƏ STRUKTUR BÖLMƏLƏRİNİN İNZİBATİ BİNALARININ GİGİYENA QAYDALARI
D. HELİKOPTER ÜZRƏ TƏLƏBLƏR (DƏNİZƏ SƏFƏR)
E. NƏQLİYYAT VASİTƏLƏRİNƏ DAİR TƏLƏBLƏR
F. QONAQ EVLƏRİNİN GİGİYENA QAYDALARI
G. SOCAR ƏMƏLİYYAT SAHƏLƏRİNİN İŞÇİLƏRİ ÜÇÜN NƏZƏRDƏ TUTULAN COVID-19 SINAĞI KEÇİRİLMƏSİ QAYDASI

**KORONAVİRUS (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində BİZNESİN DAVAMLILIĞININ təminatı ÜZRƏ PROQRAM**

## A. ÜMUMİ MÜDDƏALAR

### 1.0 MƏQSƏD

1.1 Bu plan ətraflı şəkildə qeyd olunan nəzarət tədbirlərinin tətbiqi ilə SOCAR-ın bütün işçilərini və onların ailə üzvlərinin Koronavirusdan (COVUD-19) qorunmasının təmin edilməsi üçün nəzərdə tutulmuşdur. SOCAR-ın bütün işçilərindən yaxın ailə üzvləri ilə birlikdə bu plana fəal şəkildə riayət edilməsi və nəzarət tədbirlərinin tətbiq edilməsi tələb olunur, Yaxınlarınızın sağlamlığı sizə və iş yerində həmkarlarınıza birbaşa təsir göstərir. Planın tələblərinə riayət etmək şərtilə SOCAR sizə lazımi dəstəyi göstərəcəkdir. **Bu Plana riayət etməklə hər kəsin həyatını xilas edə bilərsiniz.**

1.2 Hazırkı vəziyyəti nəzərə alaraq SOCAR və onun strukturuna daxil olan qurumlarla əmək münasibətində olan əməkdaşların Koronavirus (COVUD-19) pandemiyasına yoluxmasının qarşısını almaq məqsədilə Biznesin Davamlılığı üzrə Planın işlənib hazırlanması.

1.3 QANUNVERİCİLİK və NORMATİV BAZA

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq:

Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə fiziki şəxslər 100 manatdan 200 manatadək, vəzifəli şəxslər 1500 manatdan 2000 manatadək, hüquqi şəxslər 2000 manatdan 5000 manatadək cərimə,üstəlik, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, müəyyən hallarda bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq:
Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması xəstəliklərin yayılmasına səbəb olduqda və ya xəstəliklərin yayılması üçün real təhlükə yaratdıqda - 2500 manatdan 5000 manatdək cərimə və ya 3 ilədək azadlıqdan məhrum etmə şəklində cəza tətbiq olunur.
Eyni əməllər insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda, təqsirli şəxslərə 3 ildən 5 ilədək müddətdə azadlıqdan məhrumetmə cəzası tətbiq edilir.

Eyni zamanda, SOCAR rəhbərliyi tərəfindən verilmiş əmrlər və tabe müəssisələrə göndərilmiş telefonoqramlardakı göstərişlərə əsasən SOCAR əməkdaşları karantin rejiminin pozulması haqqında qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə cəlb olunduqda, bu hallar işəgötürən tərəfindən ciddi araşdırılmalı və həmin əməllərin onlara verilən hüquqlardan əsassız istifadə olunmaqla törədildiyi müəyyən edildikdə, həmin şəxslərin əməli eyni zamanda əmək intizamının pozulması kimi qiymətləndiriləcək və onlara qarşı ən ciddi intizam tədbirləri görüləcəkdir.

### 2.0 ƏHATƏ DAİRƏSİ

2.1 Planda göstərildiyi kimi bu proqram SOCAR-ın və onun strukturuna daxil olan qurumların bütün iş sahələrinə tətbiq olunur.

### 3.0 MƏSULİYYƏT

3.1 SOCAR və onun strukturuna daxil olan qurumlarda hazırki Proqramın və verilmiş təlimatların yerində tam icra olunması və tənzimlənməsinin təmin edilməsinə nəzarət müvafiq olaraq

vəzifə bölgüsü üzrə vitse-prezidentlərin, xətti sahə rəhbərlərinin və struktura daxil olan qurumlarının rəhbər heyətinin vəzifəsi və öhdəliyidir.

3.2 Beynəlxalq və yerli medianı izləmək və hər hansı bir dəyişiklik barədə hər kəsə məlumat vermək mətbuat xidmətinin vəzifəsidir. Mütəxəssis məsləhətlərini almaq və bölüşmək üçün şirkətə tibbi xidmətləri göstərən şirkətlə əlaqə saxlanmalıdır. SOCAR-a xidmətlər göstərən şirkətlərə SOCAR tərəfindən tətbiq olunan əməyin mühafizəsi üzrə nəzarətin nəticələrinə görə işçilərdə koronavirus testi nəticəsi pozitiv olanlar barədə məlumat verilsin. SOCAR-a xidmətlər göstərən şirkətlər də SOCAR-ın mətbuat xidmətini eyni hallarla bağlı məlumatlandırmalıdır.

3.3 SOCAR-ın quruda və dənizdə fəaliyyətinin davamlılığı üçün lazım olan dəstəyin verilməsi və vasitələrlə təmin edilməsi və yaranan dəyişikliklər və çətinliklər barədə məlumat vermək müvafiq struktur bölmənin Fövqəladə hallar üzrə Komissiyasının sədrinin və Mülki Müdafiə qərargahı rəisinin vəzifəsi və öhdəliyidir.

3.4 Ümumdunya Səhiyyə Təşkilatının (ÜST) təlimatlarını və bütün digər maraqlı tərəflərin göstərişlərini nəzərə alaraq həm quruda, həm də dənizdəki işlərin davamlılığını qorumaq üçün lazım olan dəstəyin və vasitələrin təmin edilməsi qurğu rəisinin (və ya müvafiq olaraq sahə rəisinin, mədən müdirinin) vəzifəsi və öhdəliyidir.

3.5 Bu planda göstərilən təlimatların tam şəkildə yerinə yetirilməsinin və təsdiqlənməsinin təmin edilməsi idarə (department) rəhbərlərinin (idarə olmadığı halda şöbə və s.) öhdəliyidir.

## 4.0 PROSEDUR

4.1 ŞƏXSİ DAVRANIŞ VƏ GİGİYENA

Bütün işçilər:

- İctimai nəqliyyatdan mümkün qədər istifadə etməməli. Quruda çalışanlar həmkarları ilə nəqliyyat vasitələrini bölüşməli, və ya iki nəfərdən artıq olamamaq şərtilə taksidən istifadə etməli, bu mümkün olmadıqda evdə qalmalıdırlar.
- Taksidən istifadə edərkən özünüzün və yaxın ailə üzvlərinizin arxa oturacaqda oturmasından əmin olun. Başqası ilə taksiyə minməyin və yalnız arxa oturacaqlardan istifadə edin. Mümkün olduqda sürücü və sərnişin arasında ayırıcı şüşəsi olan taksilərdən istifadə edin.
- Hər hansı şəxslə aranızda təhlükəsiz məsafə (ən azı 2 metr) saxlamağa çalışın.
- Əllə görüşməyin / dəri təmasından çəkinin.
- Gözünüzə, burnunuza və ağzınıza əllə toxunmayın. Maskalarınıza toxunmaqdan çəkinin.
- Əllərinizi tez-tez sabunla və ya digər əvəzləyici məhlulla yuyun/ dezinfeksiya edin.
- Zərurət yaranarsa tənəffüs gigiyenasına riayət edin (gigiyenik üz maskalarından və ya respiratorlardan istifadə edin)
- Mümkün qədər nağd puldan istifadə etməyin. Mümkün olduğu yerlərdə Wi-Fi və digər ödəniş vasitələri ilə plastik kartlardan istifadə edin.
- Virusun bərk əşyalarda yaşama imkanının olmasını nəzərə alaraq, mümkün olduğu qədər, pilləkan sürahiləri və qapı dəstəyi və sairə kimi əşyalara toxunduqdan sonra əlinizi dezinfeksiya edin.
- Azərbaycan Respublikasının hüdudlarından və Bakıdan kənara səyahətlərinizi ləğv edin.

- Soyuqdəymə və qrip kimi xəstəlik simptomları olduqda işə gəlməməlisiniz. Siz özünüzün və ailə üzvlərinizin sağlamlığına nəzarət edin və həkiminizi ziyarət edin.
- Yaxın ailə üzvlərinizdə virus üzrə pozitiv test nəticələri olduqda yaxud nəzarət altında olan şəxslərlə təmasda olduqda bu barədə İnsan resursları Departamentini və ya şöbəsini və xətti rəhbərinizi məlumatlandırın və müvafiq göstərişlərə əməl edin.

- Bütün işçilər mütəmadi qaydada vitamin C və Sink qəbul etməlidirlər.

4.1.1 Ofisdə Gigiyena Qaydaları

- Quruda çalışanlar, fövqəladə hallar və rəhbərliyin müvafiq göstərişi istisna olmaqla, məzuniyyət və qeyri iş günləri ofisə gəlməməlidirlər
- Karantin dövründə ofisə gələn işçilər rəhbərlik tərəfindən müəyyən edilərək siyahıya alınmalı və bu barədə işçinin özünə və mühafizə xidmətinə məlumat verilməlidir.
- Karantin dövründə ofisə gələn bütün şəxslər maska geyinməli, içəri daxil olarkən onların hərarəti xüsusi cihazla ölçülməli, içəri daxil olduqdan sonra əlləri dezinfeksiyaedici məhlulla dezinfeksiya etməli, liftdən istifadə zamanı 2 nəfərlik limitə riayət etməlidirlər
- SOCAR və strukturuna daxil olan qurumlara daxil olan sənədlər ayrı bir qutuya qoyulmalı və dezinfeksiya edildikdən sonra məsul şəxs tərəfindən götürülməlidir

4.2 İDARƏ, ŞÖBƏ VƏ SAHƏ RƏİSLƏRİ

- İşə çıxacaq şəxslərin dairəsini müəyyən etməlidirlər.

4.3 Statsionar dəniz özülünün rəisi (DDÖ rəisi)

- Zərurət yaranarsa işçiləri təcrid etmək üçün karantin zonası təşkil etmək (məs. siqaret çəkmə otağı)
- Potensial yoluxmuş şəxslərlə əlaqə qurmaq üçün kifayət qədər avadanlıq / istehlak materialının olmasını təmin etmək üçün həkimlərlə əlaqədə olmalı
- İstismar qaydasına uyğun olaraq "GermXit" istifadə olunmaqla HVAC sisteminin dezinfeksiya edilməsini yoxlamaq / təmin etmək. kifayət qədər istehlak materialları saxlamaq
- Yoluxucu xəstəliklərlə bağlı təlim keçirməli və ya bu mümkün olmadıqda email vasitəsilə işçilərə bu barədə mütəmadi olaraq maarifləndirici məlumatlar göndərməlidir.
- Dənizdə və quruda çalışan işçilərin hərarətinin xəbərdarlıqsız yoxlanılmasından əmin olmalıdır.

4.4 BAŞ OFİS və STRUKTUR BÖLMƏLƏR ÜZRƏ QƏBUL OTAĞI və RESEPŞN (VİP RESEPŞN daxil olmaqla);

SOCAR-ın Baş ofisində və struktur bölmələrin inzibati binalarında aşağıdakı istehlak materialları / yoxlamaları təmin etmək;

- Dezinfeksiya məhlulları ilə təmin edin və bütün işçilərdən (ofis işçiləri də daxil olmaqla) ofisə daxil olmamışdan əvvəl əl təmizləyicilərindən istifadə etmələrini tələb edin
- Baş Ofisdə Ekologiya İdarəsinin struktur bölməsi olan Sanitar Epidemiologiya Mərkəzinin həkim - epidemioloqları tərəfindən (Baş Ofisin inzibati binasından kənarda yerləşən struktur bölmələrdə müvafiq xidmətləri göstərən şəxslər - tibb personalı, SƏTƏM, və ya sosial bölmə tərəfindən) binaya daxil olan bütün personalın bədən hərarətini yoxlamalı və hərarəti 37 ° C-dən yuxarı olan şəxslərin mühafizə xidməti tərəfindən binaya girişinə qadağa qoymalıdır.
- Həmçinin hərarətin yoxlanılması hər səhər 9.00-da aparılmalıdır.
- Karantin müddətində Baş ofisdə çalışması planlaşdırılan şəxsi heyətin siyahısı aidiyyəti üzrə vitse-prezidentlərlə və xətti rəhbərlərlə razılaşdırılmaqla İnsan resursları Departamenti tərəfindən tərtib edilir və təqdim edilir.

4.5 Baş Ofisin İnsan resursları Departamentinin və struktur bölmələrin İnsan resursları şö bəsinin rəisi

Quruda / dənizdə çalışanları aşağıdakıları qeyd etməklə xəbərdar edin:

- Bütün ölkələrdən / rayonlardan Azərbaycana və ya Bakıya gələn / gələcək olan işçilərdən müəyyən karantin dövründən keçməsi tələb olunmalıdır
  - İşçilər üçün 14 günlük qadağa - əgər simptom yoxdursa, test edilməlidir.
  - Sonradan simptomlar olarsa, daha bir test edilməlidir.
  - Karantin müddətindən sonra, simptomlar yoxdursa, işə qayıda bilər.
  - Bütün dənizdə çalışan heyət dəyişiklikləri ən azı 14 gün / 14 istirahət günü (istirahət günlərinə 14 gün ərzində SOCAR tərəfindən müəyyən edilmiş Karantin zonasında karantində olma müddəti daxildir) olmalıdır. (Siyahı yenilənməli və paylaşılmalıdır)
- Bütün işçilər hal-hazırki sağlamlıq vəziyyətini qeyd etməli, oxuduqlarını, başa düşdüklərini və razı olduqlarını təsdiq etmək üçün A əlavəsini doldurmalıdırlar. Bu sənəd konfidensial saxlanılmalı və SƏTƏM üzrə mütəxəssisə (Baş ofisin Sağlamlıq və Əməyin Təhlükəsizliyi İdarəsi) ünvanlanmalıdır. Vəziyyət dəyişdikdə bu forma işçi tərfindən yenidən doldurulmalıdır
- Məzuniyyətdə olan bütün işçilərə hazırkı planın B və C əlavələrini göndərmək lazımdır.
- İnsan resursları üzrə mütəxəssislər Əlavə D-ni fərdi karantində olan işçilərə verməlidirlər (otel resepşini vasitəsilə).

4.6 NƏQLİYYAT İDARƏSİ

Şirkət sürücüləri Dövlət tərəfindən müəyyən olunmuş karantin dövründə hava limanını ziyarət edərkən və xaricdən gələn işçiləri qarşılayarkən aşağıdakı gigiyena qaydalarına əməl etmələridir:

- Yuxarıda göstərilən qaydalara əməl olunmalıdır
- Sürücü şirkətə məxsus nəqliyyat vasitələrində mövcud olan əl təmizləyici məhlul, salfetlər və maskalardan istifadə etməlidir.
- Hava limanı terminalına girməzdən əvvəl əl təmizləyici məhluldan istifadə edin
- Hava limanı terminalına girməzdən əvvəl maska taxın
- Sürücü girişdə toplaşan insan qruplarından uzaq durmalıdır
- Hec kimlə əllə görüşməyin
- Sərnişin öz yükünü özü daşımalıdır
- Sürücülər sərnişinə nəqliyyat vasitəsini yükləmə / boşaltma zamanı kömək edə bilər. Bundan sonra əl təmizləyicisindən istifadə edilməlidir
- Sərnişin öz yükünü özü yerləşdirməlidir
- Sürücü nəqliyyat vasitəsində maska taxmalıdır (yalnız hava limanından qayıdarkən)
- Sərnişinlər nəqliyyat vasitəsinə girməzdən əvvəl sürücü sərnişinlərə sual verərək sağlamlığı haqda məlumat almalıdır. Əgər sürücü narahatdırsa, sərnişindən səyahət üçün maska taxmağı tələb etməlidir
- Sərnişinlər yalnız arxa oturacaqda oturmalıdırlar.
- Hava limanından qarşılamaq üçün yalnız İngilis dilində danışa bilən sürücülər göndərilməlidir.

4.7 TƏCHİZAT İDARƏSİ (yerlərdə Təchizat şöbəsi və ya müvafiq səlahiyyətli şöbə):

- Bütün təchizatçıları 14 günlük karantin tələbi ilə məlumatlandırmaq və bu məhdudiyyətlərə əsaslanaraq İş Davamlılığı Planını paylaşmağı tələb etməlidir. Təchizatçılar təchizatda yarana biləcək hər hansı problemin detallarını qeyd etmək üçün elektron cədvəl hazırlamalıdırlar. Bu barədə müvafiq struktur bölmənin rəhbərliyinə məlumat verilməlidir.

4.8 I.T DEPARTMENTİ (I.T şöbəsi);

- Quruda çalışan işçilərin iş və ya şəxsi kompyuterlərindən və mobil telefonlarından iş e-poçtlarına, elektron sənəd dövriyyəsi sisteminə və Biznes skayp tətbiqinə daxil olmasını təmin etmək.

4.10 İCLASLAR

- Üz-üzə görüşləri mümkün qədər minimuma endirmək üçün, e-poçt yazışmalarından və telefon / konfrans zənglərindən istifadə edin
- Onlayn təlimatlara üstünlük verin

4.11 DƏNİZDƏKİ QURĞULARA SƏFƏRLƏRƏ NƏZARƏT

- Dənizdəki qurğulara təcili hallarda gedilməsi zərurəti, yəni tədqiqat işlərinin aparıması vacibliyinin yarandığı təqdirdə, SOCAR üzrə vəzifə bölgüsünə uyğun olaraq, SOCAR-ın vitse-prezidenti ilə razılaşdırılmaqla "Azneft" İB-nin Baş direktorunun və ya bu sahəyə məsul şəxsin icazəsi alınmalıdır.

4.12 İNTİZAM TƏDBİRLƏRİ;

- Hazırki planda nəzərdə tutulan tələblərə əməl etməyən və ya onlar üçün müəyyən edilmiş öhdəlikləri yerinə yetirməyən şəxslər evlərinə göndəriləcək və işdən kənarlaşdırılacaq.

## 5.0 QEYD

| QEYD | SAXLAMA MÜDDƏTİ | CAVABDEH |
|---|---|---|
| Yoxlama siyahısı | 2 İL | Keyfiyyətə nəzarət üzrə mütəxəssis |
| Doldurulmuş Əlavə A | 2 İL | SƏTƏM üzrə mütəxəssis (konfidensial) |
| Doldurulmuş Əlavə D | 2 İl | SƏTƏM üzrə mütəxəssis (konfidensial) |

## 6.0 ƏLAVƏLƏR

6.1 Əlavə A. COVID-09 Anket.
6.2 Əlavə B. Karantinə dair təlimatlar
6.3 Əlavə C. BÜTÜN İŞÇİLƏR ÜÇÜN BAYRAM VƏ İSTİRAHƏT GÜNLƏRİ ÜÇÜN QAYDALAR
6.4 Əlavə D- Özünüqiymətləndirmə qeydiyyat cədvəli
6.5 Əlavə E. YOXLANMA TARİXÇƏSİ

**Əlavə A**

**COVID-19 Anket**

| **İşçinin Adı Soyadı:** | **İşçinin tabel nömrəsi:** | **Vəzifə:** |
|---|---|---|
| | | |

Hal-hazırda aşağıda qeyd edilən simptomlardan biri varmı? Uyğun variantı qeyd edin:

| | | | | | |
|---|---|---|---|---|---|
| Hərarət/soyuqdəymə | | Öskürək | | Halsızlıq | |
| Nəfəs darlığı (təngnəfəslik) | | Nəfəs almaqda çətinlik | | Baş ağrısı | |
| Boğaz ağrısı | | İshal | | | |
| Dad və ya qoxu bilmənin itməsi | | ürək bulanması | | | |

| | |
|---|---|
| Son 14 gün ərzində yaxın qohumunuz / ailə üzvünüz Azərbaycandan kənarda başqa ölkəyə və ya Bakıdan kanara səyahət edibmi?<br><br>Əgər olubsa, yaşadığınız və olduğunuz yeri qeyd edin | BƏLİ XEYR |
| COVID-19 virusuna yoluxmuş və ya karantində olan bir şəxslə yaxın təmasda (ortaq yaşayış, və ya qayğı) və ya danışıq məsafəsində (əgər infeksiyaya qarşı nəzarət tədbirlərindən istifadə edilməyibsə) olmusunuzmu? | BƏLİ XEYR |

| | | |
|---|---|---|
| Bununla mən Biznesin Davamlılığı üzrə Planla tanış olduğumu və verilən bütün məlumatların düzgün olduğunu təsdiq edirəm | | |
| İşçinin İmzası: | Tarix: | |
| Əgər bu forma və Biznesin davamlılığı üzrə Plan sizə tərcüməçi tərəfindən təqdim edilibsə, tərcüməçinin adı və vəzifəsi göstərilməlidir; | | |
| Tərcüməçinin adı : | Vəzifəsi : | Tarix: |

Qeydlər.
1. Bu anket konfidensial məlumat kimi SƏTƏM üzrə mütəxəssisə qaytarılmalıdır.
2. Şərtlər dəyişərsə, bu anket işçi tərəfindən yenidən təqdim edilməlidir.

***Əlavə B Təlimatlar***

***KARANTİNƏ DAİR TƏLİMATLAR (ÜMUMİ)***

Özünü o şəxslər fərdi təcrid edir ki:

- COVID-19-a yoluxmuş və ya yoluxması ehtimal edilən şəxslə əlaqədə olmuşdur,
- Dənizdə qurğuya və ya Heliporta getməyə ona icazə verilməmişdir,
- Əlavə A-dakı hər hansı simptomu vardır və ya hərarəti 37 dərəcədən yuxarıdır,
- İşçi Şirkəti bu barədə məlumatlandırmalı və Şirkət də onu müvafiq testdən keçməsini təşkil etməlidir.

Özünü təcrid etmə (karantin) – İşçilər aşağıdakıları etməlidir,

1. Karantinə başladığınız haqqında xətti rəisinizi, çalışdığınız qurumun İnsan resursları şöbəsini məlumatlandırın. Dənizdə işləyənlər müvafiq idarə və şöbə rəislərini məlumatlandırmalıdır.
2. Özünü təcrid etmə (karantin) zamanı ailə üzvləri çıxılmaqla başqaları ilə təmasdan və ictimai yerlərdən çəkinin.
3. Digər insanlardan ayrı, tez-tez havası dəyişən və pəncərəsi açıla bilən evdə/oteldə qalmalısınız. Vacib! Oteldə toplaşan qruplardan uzaq durun, məs. barlar.
4. Ərzaq, dərman və digər ehtiyaclarınız olarsa ailə üzvləriniz, dostlarınız və ya sürücülərdən sizə iki həftə ərzində ərzaq ehtiyatları ilə təmin etmələrini xahiş edin.
5. Çölə çox az-az hallarda çıxılmalı, daha çox evdə vaxt keçirilməlidir.
6. Bu müddətdə xətti sahə rəhbərinizlə razılaşdığınız halda evdən/hoteldən işləyə bilərsiniz. Zəhmət olmasa, rəhbərinizlə mütəmadi olaraq əlaqə saxlayın. Erqonomik hərəkətləri etməyi unutmayın.
7. Bütün heyət Əlavə D-ni istifadə edərək öz vəziyyətlərini daim yoxlamalıdır. Onlar-
    - İnsan resursları üzrə mütəxəssislə hər gün əlaqə saxlayıb öz vəziyyətlərini bildirməlidir,
    - Simptomlar başlayarsa insan resursları üzrə mütəxəssisləri, xətti sahə rəhbərini və SƏTƏM üzrə mütəxəssisi məlumatlandırmalı,
    - 14 gündən sonra Əlavə D-dəki anketi doldurmalı və xətti sahə rəhbərinə, aidiyyəti qurumda çalışan SƏTƏM üzrə mütəxəssisə və İnsan resursları şöbəsinin rəisinə göndərməlidir.
8. Əgər simptomlar yoxdursa, işçi öz işinə geri qayıda bilər. Əgər simptomlar hələ də varsa, şirkət

tərəfindən təmin edilməklə o yenidən müayinə ediləcək.

- Karantin dövründə:

- Yalnız ərzaq və dərman almaq üçün küçəyə çıxın,
- Ərzaq və dərman almaq üçün mümkün qədər qısa vaxt sərf edin,
- Çöldə geyindiyiniz paltarları evə və ya otelə qayıtdıqdan dərhal sonra çıxarın,
- Otağa girmədən öncə əllərinizi sabunla ən azı 30 saniyə yuyun və ya dezinfeksiya edin,
- Spirtli içkilər içməyin.

KARANTİNƏ DAİR TƏLİMATLAR (MÜSBƏT nəticə olduqda)

- Əgər işçinin test nəticəsi müsbət olarsa, dövlət orqanları tərəfindən verilən təlimatlara əsasən nəzarət altına alınacaqdır.

***ƏLAVƏ C***

BÜTÜN İŞÇİLƏR ÜÇÜN BAYRAM VƏ İSTİRAHƏT GÜNLƏRİ ÜÇÜN QAYDALAR

4.1-ci bənddə göstərilən qaydalardan əlavə, istirahət günləri ərzində Azərbaycanda, Bakıda istər oteldə, istərsə də mənzildə qalan işçilər aşağıdakı qaydalara əməl etməlidirlər:

1. Evinizdə xəstə ailə üzvünü başqalarından ayırmaq üçün istifadə edilə bilən bir otaq seçin.
2. Gündəlik profilaktik tədbirlər edin:

   - Əllərinizi tez-tez yuyun
   - Gözlərinizə, burnunuza və ağzınıza toxunmaqdan çəkinin
   - Xəstə olduğunuz halda evdə qalın
   - Öskürdükdə və ya asqırdıqda ağzınızı salfetlə örtün və həmin salfeti zibil qutusuna atın
   - Toxunduğunuz əşyaları və səthləri tez-tez təmizləyin və dezinfeksiya edin
   - Hər 15 dəqiqədən bir ılıq su için
   - Əllərinizi minimum 30 saniyə ərzində ılıq su və sabunla yuyun.

3. Şəxsi avtomobilsiz ölkə xaricinə və Bakıdan kənara səyahət etməyin.
4. Mümkün olduğu qədər evdə və ya oteldə qalın.
5. Spirtli içki qəbul etməyin. Spirtli içki immunitetinizi zəiflədə bilər.
6. Ictimai nəqliyyatdan istifadə etməyin, piyada gəzməyə üstünlük verin. İctimai nəqliyyatdan istifadə etmək məcburiyyətindəsinizsə, uzaq məsafəli səyahətlərdən çəkinin.
7. Başqaları ilə sıx təmasdan mümkün qədər çəkinin (təxminən 2 metr).
8. Ən yaxın dostlarınız və qohumlarınızla belə qucaqlaşmayın, əllə görüşməyin.
9. Ailə üzvlərinizdən kimsə xəstədirsə, ona ayrıca otaq ayırın.
10. Səthləri dezinfeksiya edin.
11. Şəxsi əşyalarınızı paylaşmayın.
12. Xəstələndiyiniz halda başqaları ilə telefon və e-poçt vasitəsilə əlaqə saxlayın.
13. Ölkədə koronavirusa yoluxma vəziyyətindən daim məlumatlı olun.
14. İş emailinizi daim yoxlayın. Şirkət tərəfindən yenilənmiş məlumatlar paylaşıla bilər.

***Əlavə D- Özünüqiymətləndirmə qeydiyyat cədvəli***

**ƏLAVƏ D. ÖZÜNÜ QİYMƏTLƏNDİRMƏ ANKETİ**

Bu gündəlik qeydiyyat karantində olması tələb olunmuş bütün İşçilər tərəfindən doldurulmalıdır.

| Ad və soyad: | | | İşçinin tabel nömrəsi: | | Vəzifə: | | | Tarix: (karantinin 1-ci günü) | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ŞƏXSİ İSTİFADƏ ÜÇÜN – Şəxsi Temperatur Nəzarət Qeydiyyatı | | | | | Aşağıdakı simptomlardan hər hansı biri sizdə varmı? (Hə / Yox) | | | | | | | |
| Gün | Temperatur 1 (səhər) | Temperatur 2 (günortadan sonra) | Qızdırma | Tənəffüs çatışmazlığı | Ösk ürək | Boğaz ağrısı | Qarın ağrı | Əzələ ağrısı | Yorğunluq | Başağrı | Dad və qoxu bilmənin itməsi | Burun axma |
| 1 | | | | | | | | | | | | |
| 2 | | | | | | | | | | | | |
| 3 | | | | | | | | | | | | |
| 4 | | | | | | | | | | | | |
| 5 | | | | | | | | | | | | |
| 6 | | | | | | | | | | | | |
| 7 | | | | | | | | | | | | |
| 8 | | | | | | | | | | | | |
| 9 | | | | | | | | | | | | |
| 10 | | | | | | | | | | | | |
| 11 | | | | | | | | | | | | |
| 12 | | | | | | | | | | | | |
| 13 | | | | | | | | | | | | |
| 14 | | | | | | | | | | | | |
| | Mən təsdiq edirəm ki, bu cədvəldə qeyd edilmiş məlumat bu dövr ərzində müşahidə edilmiş gündəlik vəziyyəti həqiqətən əks etdirir. | | | | | | | | | | | |
| İşçinin imzası: | | | | | | | Tarix: (karantinin 14-cü günü) | | | | | |

**Qeydlər:**

İşçilər İnsan resursları şöbəsinin mütəxəssisinə sağlamlıqları haqqında gündəlik məlumat verməlidirlər.

Doldurulmuş anket aidiyyəti qurumun tərkibində çalışan SƏTƏM üzrə mütəxəssisə və İnsan resursları üzrə mütəxəssisə qiymətləndirmə üçün göndərilməlidir.

## B. DƏNİZDƏ ÇALIŞANLAR ÜÇÜN GÜCLƏNDİRİLMİŞ KARANTİN REJİMİ TƏLƏBLƏRİ (OFŞOR SƏFƏRLƏR)

### 1.0 MƏQSƏD

1.1 Koronavirus pandemiyası davam etdiyi müddət ərzində SOCAR-ın biznes fəaliyyətinin davamlılığının təmin edilməsi və dənizdə işçi heyətinin müdafiəsi məqsədilə əlavə tədbirlərin görülməsi ilə bağlı gücləndirilmiş karantin tələblərini müəyyən etmək.

1.2 SOCAR-ın tələbinə əsasən dənizdəki qurğularda növbəli rejimdə işləmək üçün səyahət etməli olan personal 14 gün ərzində SOCAR tərəfindən müəyyən edilmiş karantin zonasında nəzarət edilən karantin rejimində saxlanmalıdır və bu müddət növbəli iş rejimində işləyənlərin istirahət vaxtına daxil ediləcəkdir. Bu müddət keçdikdən sonra, tibbi müayinənin nəticələrinə əsasən (Əlavə A) və heç bir simptomları olmazsa (Əlavə B), həmin şəxslərin dənizdə çalışması üçün Dənizdə yerləşən yataqlarda işləmək üçün getməsinə icazə veriləcək. Dənizdəki qurğularda çalışanların növbəli iş üsulu ilə çalışan işçilərin iş rejimi və əməyin ödənilməsi SOCAR-ın qüvvədə olan normativ sənədlərinin tələblərinə müvafiq olaraq tənzimlənəcəkdir.

1.3 Qeyd. Karantin Düşərgəsi və orda yerləşdirilmiş şəxslər ciddi nəzarətdə saxlanmalı, şəxslərin hərəkəti məhdudlaşdırılmalı və onları bir-birindən ayrı qalması təmin edilməli, eləcə də onların sağlamlığının təmin edilməsi üçün bütün mümkün vasitələrdən istifadə edilməlidir.

1.4 Karantin rejiminin tələblərinin pozulmasına görə cərimə və məsuliyyət tədbirləri

Azərbaycan Respublikası İnzibati-Xətalar Məcəlləsinə əsasən, (maddə 211), epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə :

fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər iki min manatdan beş min manatadək məbləğdə cərimə edilir.

Bundan əlavə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən (139-1.1), epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması xəstəliklərin yayılmasına səbəb olduqda və ya xəstəliklərin yayılması üçün real təhlükə yaratdıqda:

iki min beş yüz manatdan beş min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda: üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır."

Eyni zamanda, SOCAR rəhbərliyi tərəfindən verilmiş əmrlər və tabe müəssisələrə göndərilmiş telefonoqramlardakı göstərişlərə əsasən SOCAR əməkdaşları karantin rejiminin pozulması

haqqında qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə cəlb olunduqda, bu hallar işəgötürən tərəfindən ciddi araşdırılmalı və həmin əməllərin onlara verilən hüquqlardan əsassız istifadə olunmaqla törədildiyi müəyyən edildikdə, həmin şəxslərin əməli eyni zamanda əmək intizamının pozulması kimi qiymətləndiriləcək və onlara qarşı ən ciddi intizam tədbirləri görüləcəkdir.

## 2.0 ƏHATƏ DAİRƏSİ

2.1 SOCAR-ın dəniz obyektlərində olan iş yerlərində çalışan və ya həmin iş yerlərinə göndərilən(gedən) bütün işçi heyət(lər).

## 3.0 MƏSULİYYƏT

3.1 SOCAR-ın dənizdə biznes fəaliyyətinin davamlı olması üçün lazımi dəstəyin və resursların təmin edilməsi aidiyyəti qurum rəhbərinə və ya onun müavininin (əvvəlcədən müəyyən edilməklə) öhdəliyidir. O, həmçinin, birgə əməliyyatları həyata keçirdiyimiz şirkətləri də bu barədə məlumatlandırmalıdır.

3.2 SOCAR-a xidmət göstərən müvafiq şirkətlərlə əlaqədə olmaq, onların və onların subpodratçılarının buna bənzər karantin rejimini tətbiq etməklərini təsdiq etdirmək SOCAR-ın aidiyyəti struktur bölməsinin (idarəsinin) vəzifəsi və öhdəliyidir.

3.4 Bütün işçiləri gücləndirilmiş karantin rejimi barədə məlumatın elan edilməsi və çatdırılması Baş ofisin İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili İdarəsinin, təlimatların çatdırılması İnsan resursları üzrə mütəxəssisin öhdəliyidir.

3.5 Təchizatçıları karantin rejiminin tələbləri ilə bağlı məlumatlandırmaq və onlardan onların tətbiq etdiyi tədbirlər planı barədə məlumat almaq aidiyyəti struktur bölmələrin (şöbələrin) öhdəliyidir.

3.6 Hazırki planda sadalanmış təlimatlar və tədbirlərin yerinə yetirilməsinin təmin edilməsi SOCAR-ın strukturuna daxil olan bütün qurumların birbaşa vəzifəsi və öhdəliyidir.

## 4.0 PROSEDUR

4.1 FƏRDİ DAVRANIŞ / GİGİYENA

Karantində olan bütün əməkdaşlar lazımi gigiyena qaydalarına riayət etməlidirlər;

- Eyni otağı bölüşmədiyiniz hər hansı şəxslə aranızda təhlükəsiz məsafə saxlayın (ən azı 3 metr).
- Əl ilə görüşməyin, dərinin digər şəxsin dərisiylə təmasından uzaq durun.
- Əllə gözlərinizə, burnunuza və ağzınıza toxunmayın.
- Şəxsi maskalarınıza toxunmayın.
- Şəxsi əşyalarınızı başqaları ilə paylaşmayın.
- Əllərinizi tez-tez yuyun / dezinfeksiya edin.
- Otağınızı tərk edərkən maska taxın və ayaqqabı örtüyü geyinin.
- Mümkün olduğu qədər öz otağınızda qalın.

- Lazım olduğu hallarda nəfəs gigiyenasına əməl edin (maska, respirator və sair istifadə edin).

## 4.2 SOCAR ƏMƏKDAŞLARI ÜÇÜN KARANTİN TƏLƏBLƏRİ

- Açıq dənizə (offshore) gedəcək bütün əməkdaşlar 1.2-ci bölmədə göstərilmiş müddətdə SOCAR-ın karantin üçün ayrılmış məkanında (Karantin Zonası) qalmalıdırlar.

- İşçilər şəxsi termometrlərdən istifadə edərək öz vəziyyətlərinə nəzarət etməli və özünüqiymətləndirmə cədvəllərini doldurmalı / təqdim etməlidirlər (Əlavə B). Hər hansı sual yarandıqda həkimə və ya sağlamlıqla bağlı problem olduqda düşərgə rəhbərinə müraciət edə bilərlər. Həkim lazım olduğu təqdirdə və vaxtda dövlət təcili tibbi yardımını (Səhiyyə Nazirliyinin Təcili və Təxirəsalnmaz Tibbi Yardım Stansiyasını) çağıracaq.

- SOCAR-ın karantin zonasına gələn bütün əməkdaşlar gəldikdən sonra yoxlanılacaq. Hər otaqdan iki nəfərdən artıq olmamaq şərti ilə yerləşmə aparılmalıdır.

- Karantində olan bütün əməkdaşlar üçün yemək və camaşırxana SOCAR tərəfindən təmin ediləcək, lakin virusun xidmət personalına yayılmasının qarşısını almaq üçün işçilər otaqlarını özləri təmizləyəcəklər. Təmizləyici vasitələr SOCAR tərəfindən təmin ediləcəkdir

- SOCAR-ın karantin düşərgəsində Düşərgə rəhbəri, SƏTƏM məsləhətçisi, Həkim, Təhlükəsizlik (xidmətinin) işçiləri və təsərrüfatçılar olacaqdır. Onlar da xidmətlərini yerinə yetirərkən təhlükəsiz məsafəyə riayət edəcəklər və zəruri fərdi qoruyucu vasitələr taxacaqlar.

- SOCAR-ın karantin düşərgəsində alkoqol qəbul etməyə və siqaret çəkməyə icazə verilmir.

- Karantin müddəti başa çatan bütün heyət SOCAR-ın avtobusu və ya müvafiq nəqliyyat vasitəsi ilə heyət dəyişikliyi düşərgəsinə aparılacaq. Transfer zamanı əməkdaşlar bir-birindən təhlükəsiz məsafədə oturacaq və maska geyinəcəkdir. Əgər tələb olunarsa, sərnişinlər arasında təhlükəsiz məsafəni təmin etmək üçün bir neçə dəfə səfər təşkil olunacaqdır.

- Karantin düşərgəsi internet və peyk və ya kabel televiziyası ilə təmin ediləcəkdir.
- SOCAR-ın karantin düşərgəsinə Düşərgə rəhbəri təyin ediləcəkdir.

- Bütün karantin müddətində əməkdaşlar maskalar, dezinfeksiyaedici vasitələr və ayaqqabı örtükləri ilə təmin ediləcəkdir.

## 4.3 AÇIQ DƏNİZ MƏKANINA (OFFSHORE) SƏYAHƏT EDƏN PODRATÇI və SUBPODRATÇI İŞÇİLƏRİ

- SOCAR-ın podratçı şirkətlərinin əməkdaşlarının müvafiq şirkət tərəfindən təşkil olunmuş (videomüşahidə də daxil olmaqla) karantinə yerləşdirilməsi və bu müddət ərzində özünü qiymətləndirmə jurnalını doldurmaları tələb ediləcəkdir.
- Dənizə səyahətdən əvvəl müvafiq qurumun növbəni dəyişməyə məsul olan şəxsi tərəfindən (dəqiqləşdirilməsi vacibdir) buna əməl olunması yoxlanmalıdır. Podratçı şirkətlər öz işçi heyəti və subpodratçı şirkətlərin işçilərinə karantinə yerləşdirilməsi prosedurlarını baxılması və təsdiq edilməsi üçün SOCAR-a təqdim etməlidir. SOCAR-ın podratçı şirkətlərin karantin düşərgələrini mütəmadi yoxlamaq, o cümlədən videomüşahidə yazılarını əldə etmək hüququ olacaqdır.

**Qeyd (**4.2-4.3 bölmələrə aid): hökumətin təşkil etdiyi karantin düşərgəsində keçirilən vaxt minimum karantin müddətinin riayət olunmasını təmin edəcək, bir şərtlə ki, 14 gün karantin müddətində yerinə yetirildiyi və şəxsin açıq dənizə (Offshore) aparılana qədər yoxlanılan / nəzarət edilən karantin mühitində qalması təmin edilmişdir.

Əgər podratçı şirkətin, və ya subpodratçı şirkətin personalı SOCAR-ın karantin qaydalarına əməl etməzsə, onun SOCAR qurğularına getməsinə icazə verilməyəcək.

4.4 KARANTİN DÜŞƏRGƏSİNİN SOCAR TƏRƏFİNDƏN TƏCHİZATI

- SOCAR-ın Təchizat İdarəsi karantin düşərgəsində təyin olunmuş Düşərgə Rəhbərinə dəstək olacaqdır.
- Ərzaq və ya başqa çatdırılma aparan şəxs gözlük, N 95 və ya FFP2 / 3 maskası, papaq, birdəfəlik örtük, otağa daxil olarsa ayaqqabı örtüyü geyinməlidir.
- Şəxslər Karantin müddətini keçdikdən sonra SOCAR-ın karantin düşərgəsindən birbaşa dənizdəki yoxlama düşərgəsinə aparılır.
- Transfer zamanı əməkdaşlar bir-birindən təhlükəsiz məsafədə oturacaq və maska geyinəcəkdir. Əgər tələb olunarsa, sərnişinlər arasında təhlükəsiz məsafəni təmin etmək üçün bir neçə dəfə səfər təşkil olunacaqdır.
- Düşərgəyə gələn bütün sürücülər avtomobilə minməzdən əvvəl qoruyucu geyim geyinəcəklər. Qoruyucu geyimi geyindikdən sonra heyətin yola salındığı məntəqəyə personalı təhvil verənədək avtomobili tərk etməməlidir.

4.5 KARANTİN MƏRKƏZİNDƏ TƏHLÜKƏSİZLİK

- Karantin mərkəzinə nəzarət edən şəxs (Karantin mərkəzi yerləşən obyektə nəzarət edən Təhlikəsizlik/mühafizə xidməti üzrə struktur bölmənin rəhbəri) karantin mərkəzində öz personalının, eləcə də təchizatçı şirkətlərə aid personalın təhlükəsizliyini təmin etməlidir. Mərkəzə giriş və çıxışı nəzarətdə saxlamaq, kənar şəxslərin içəriyə daxil olmaması və mərkəzi heç kimin tərk etməməsi üçün növbətçilər müəyyən ediləcək.
- Personalın təhlükəsizliyinin təmin edilməsi məqsədilə karantin mərkəzində kameralar yerləşdiriləcək.

4.6 KARANTİN MƏRKƏZİNİN HƏYƏTİNDƏ GƏZİNTİ

- İşçi heyət Karantin Düşərgəsinin həyətində gəzinti etmək imkanında olacaq. Eyni vaxtda gəzmək istəyən şəxslərin sayı təhlükəsizlik xidməti tərəfindən nəzarətdə saxlanılacaq və tənzimlənəcək.
- Təhlükəsizlik xidmətinin əməkdaşı lazımi məsafənin şəxslər arasında saxlanmasına nəzarət edəcək.

4.7 HELİPORT NƏZARƏT TƏDBİRLƏRİ

Səyahət edən ekipajın Koronavirusa yoluxması riskini azaltmaq üçün, Heliport/Helikopter Operatoru aşağıdakıları etməlidir:

- Maşınlar və helikopterlər daxil olmaqla bütün sahələrin mütəmadi olaraq dezinfeksiya edilməsi;
- Öz işçilərinin şəxsi gigiyenasına nəzarət və monitorinq üçün müvafiq prosedurlar tətbiq etməli;
- Respirator simptomları yoxlamaq və qızdırmanı ölçmək üçün Heliporta daxil olan bütün şəxslərin (işçilər və sərnişinlər) müayinədən keçirilməsi;
- Yalnız bu planda nəzərdə tutulmuş karantin rejimini uyğulayan şəxslər SOCAR qurğularına getmək üçün helikopterlərdə birlikdə səyahət edə biləcəklər;
- Bütün pilotlar və helikopter ekipajı SOCAR qurğularına səyahət edən zaman və baqajları təchiz edən zaman, eləcə də Heliportdan gələn zaman, Helikopterə avtobusla daşınma zamanı, müvafiq qoruyucu geyimlərdə olmalıdır.

4.8 İNZİBATİ TƏDBİRLƏR

- Hazırki planda nəzərdə tutulan tələblərə əməl etməyən və ya onlar üçün müəyyən edilmiş öhdəlikləri yerinə yetirməyən şəxslər evlərinə göndəriləcək və işdən kənarlaşdırılacaq.

## 5.0 SƏNƏDLƏR və ONLARIN SAXLANMASI

| SƏNƏD | SAXLAMA MÜDDƏTİ | MƏSUL ŞƏXS/SAXLANMA YERİ |
|---|---|---|
| Doldurulmuş Əlavə A | 2 il | Baş ofisin Sağlamlıq və Əməyin Təhlükəsizliyi İdarəsi/ Baş ofisin Mərkəzi Arxivinin saxlancları (konfidensial) |
| Doldurulmuş Əlavə B | 2 il | Baş ofisin Sağlamlıq və Əməyin Təhlükəsizliyi İdarəsi/Baş ofisin Mərkəzi Arxivinin saxlancları (konfidensial) |

## 6.0 ƏLAVƏLƏR

6.1 Əlavə A. COVID-19 ANKETİ

6.2 Əlavə B. ÖZÜNÜ QİYMƏTLƏNDİRMƏ QEYDİYYATI

**Əlavə A**

**COVID-19 ANKETİ**

| **İşçinin ad və soyadı:** | **İşçinin tabel nömrəsi:** | **Vəzifə:** |
|---|---|---|
| | | |

Aşağıdakı simptomlardan hər hansı biri hazırda sizdə varmı? Uyğun olan hamısının seçin:

| | | | |
|---|---|---|---|
| Qızdırma/Soyuqdəymə | | Öskürək | |
| Tənəffüs çatışmazlığı | | Nəfəs almada çətinlik | |
| Boğaz ağrısı | | Qarın işləmə | |
| Dad və /və ya qoxu hissinin itməsi | | | |

| | |
|---|---|
| Son 14 gündə siz özünüz və ya yaxın qohumunz/ailə üzvünüz Azərbaycandan kənarda başqa bir ölkəyə və ya Bakıdan kənara səyahət edibmi?<br><br>HƏ edibsə, aşağıda sakini olduğunuz və transit olaraq istifadə etdikləriniz də daxil olmaqla yeri/yerləri qeyd edin: | HƏ YOX |
| COVID-19 olan və ya bununla bağlı yoxlamada olan bir şəxslə<br><br>Yaxından əlaqəniz (ortaq yaşayış yeri və ya qayğı göstərmə) VƏ YA<br><br>Danışıq məsafəsində vaxt keçirdiyiniz (yoluxma önləmlərinə riayət edilməyibsə) olubmu? | HƏ YOX |

| Bununla da təsdiq edirəm ki, Şirkətin Biznesin davamlılığının təminatı üzrə Proqramını oxudum və tanış oldum və burada verdiyim bütün məlumatlar doğrudur. | |
|---|---|
| İmza: | Tarix: |

| |
|---|
| KORONAVİRUS (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində BİZNESİN DAVAMLILIĞININ təminatı ÜZRƏ PROQRAM |

| Əgər bu forma və Biznesin davamlılığı üzrə Plan sizə tərcüməçi tərəfindən təqdim edilibsə, tərcüməçinin adı və vəzifəsi göstərilməlidir; | | |
|---|---|---|
| Ad : | Vəzifə : | İmza: |

**QEYDLƏR.**

1. Bu anket SƏTƏM üzrə mütəxəssisə konfidensial olduğu qeyd edilməklə göndərilməlidir.
2. Şərait dəyişərsə, hazırki anket işçi tərəfindən yenidən tərtib edilməli və təqdim edilməldir.
3. Bu anket struktura daxil olan qurumların SƏTƏM üzrə mütəxəssisi tərəfindən ümumiləşdirilməklə Baş ofisin SƏMİ-yə (İRD) təqdim edilir.

**KORONAVİRUS (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində BİZNESİN DAVAMLILIĞININ təminatı ÜZRƏ PROQRAM**

## ƏLAVƏ B. ÖZÜNÜ QİYMƏTLƏNDİRMƏ ANKETİ

Bu gündəlik qeydiyyat karantində olması tələb olunan bütün İşçilər tərəfindən doldurulmalıdır.

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ad və soyad: | | | İşçinin tabel nömrəsi: | | | Vəzifə: | | | | Tarix: (karantinin 1-ci günü) | | |
| ŞƏXSİ İSTİFADƏ ÜÇÜN – Şəxsi Tempratur Nəzarət Qeydiyyatı | | | | Aşağıdakı simptomlardan hər hansı biri sizdə varmı? (Hə / Yox) | | | | | | | | |
| Gün | Temperatur 1 (səhər) | Temperatur 2 (günortadan sonra) | Qızdırma | Tənəffüs çatışmazlığı | Öskürək | Boğaz ağrısı | Qarınağrı | Əzələ ağrısı | Yorğunluq | Başağrı | Dad və ya qoxu bilmə hissinin itməsi | Burun axma |
| 1 | | | | | | | | | | | | |
| 2 | | | | | | | | | | | | |
| 3 | | | | | | | | | | | | |
| 4 | | | | | | | | | | | | |
| 5 | | | | | | | | | | | | |
| 6 | | | | | | | | | | | | |
| 7 | | | | | | | | | | | | |
| 8 | | | | | | | | | | | | |
| 9 | | | | | | | | | | | | |
| 10 | | | | | | | | | | | | |
| 11 | | | | | | | | | | | | |
| 12 | | | | | | | | | | | | |
| 13 | | | | | | | | | | | | |
| 14 | | | | | | | | | | | | |
| | Mən təsdiq edirəm ki, bu cədvəldə qeyd edilmiş məlumat bu dövr ərzində müşahidə edilmiş gündəlik vəziyyəti həqiqətən əks etdirir. | | | | | | | | | | | |
| İşçinin imzası: | | | | | | | Tarix: (karantinin 14-cü günü) | | | | | |

**Qeydlər:**

1. Karantin Düşərgəsinin rəhbəri karantində olanların sağlamlığı barədə məlumatları işçilərdən tələb edir və onları arxivləşdirir.
2. Karantinə alınmış bütün işçilər öz işlədikləri qurumun (idarənin, trestin) İnsan resursları üzrə mütəxəssisinə (şöbə rəisinə) sağlamlığı barədə məlimat verməlidir.
3. Doldurulmuş anketlər karantinə alınmış şəxsin işlədiyi qurumun SƏTƏM üzrə mütəxəssisinə və İnsan resursları üzrə mütəxəssisə təqdim edilməsi üçün göndərilir.
4. Karantin düşərgəsinin məsul şəxsi karantinə alınmış şəxslərin sağlamlığı barədə ümumiləşdirilmiş məlumatları karantin zonasını

yaradan qurumun rəhbərinə təqdim edir.Karantin zonasını yaradan qurumun rəhbəri ərazidə fəaliyyət göstərən düşərgələrdə karantinə alınmış işçilər barədə ümumiləşdirilmiş məlumatları SOCAR-ın Baş ofisinin Sağlamlıq və Əməyin Təhlükəsizliyi İdarəsinə və İnsan resursları Departamentinə təqdim edir.

## C. SOCAR-ın BAŞ OFİSİNİN VƏ STRUKTUR BÖLMƏLƏRİNİN İNZİBATİ BİNALARININ GİGİYENA QAYDALARI

### 1.0 MƏQSƏD

1.1 Koronavirusun (Covid-19) yayılmasının qarşısını almaq üçün SOCAR-ın Baş ofisinin inzibati binasında (SOCAR TOWER) və inzibati binadan kənar iş yerlərində çalışan Baş ofisin struktur bölmələri, eləcə də SOCAR-ın strukturuna daxil olan bölmələrin inzibati binalarında gigiyena qaydalarının müəyyənləşdirilməsi.

### 2.0 ƏHATƏ DAİRƏSİ

2.1 SOCAR-ın Baş ofisinin inzibati binasında (SOCAR TOWER) və inzibati binadan kənar iş yerlərində çalışan Baş ofisin struktur bölmələrində və SOCAR-ın digər struktur bölmələrinin inzibati binalarında çalışan və ya bu iş yerlərini ziyarət edən bütün işçi heyət

### 3.0 MƏSULİYYƏT

3.1 Bu proseduru ÜST VƏ SOCAR-ın tibb təminatçısı "Paşa Sığorta" ASC tərəfindən verilmiş təlimatlara uyğunlaşdırmaq və işçi heyəti tərəfindən bu prosedura riayət olunmasını yoxlamaq Baş ofisin İşçilərə tibbi xidmətin təşkilinə nəzarət şöbəsinin və Sağlamlıq və Əməyin Təhlükəsizliyi İdarəsinin vəzifəsi və öhdəliyidir.

3.2 SOCAR-ın və strukturuna daxil olan qurumların ofis binalarının gigiyena qaydalarına əməl olunması üçün tələb olunan lazımi sayda vasitələrlə təmin olunması SOCAR-ın Təchizat İdarəsinin və struktura daxil olan qurumların müvafiq struktur bölmələri rəhbərlərinin və məsul şəxslərinin vəzifə və öhdəliyidir.

3.3 Burada göstərilən qaydalara riayət etmək, eləcə də qaydalara zidd hərəkət edən şəxsi bundan çəkindirmək və qaydalara uyğun davranışa dəvət etmək hər bir işçinin öhdəliyidir.

### 4.0 PROSEDUR

4.1 OFİSƏ GƏLİŞ VƏ DAXİL OLMA

- Yalnız adiyyəti struktur bölmələrin rəhbərləri tərəfindən təqdim edilmiş siyahıda adları qeyd edilmiş işçilərin ofisə buraxılmasına icazə verilir. Siyahıda adı qeyd olunmayan şəxs ofisə gəldikdə bilavasitə struktur bölmənin rəhbəri vasitəsi ilə Mühafizənin təşkili, MM və hərbi səfərbərlik şöbəsi (struktur bölmələrdə Məxfi-rejim və hərbi səfərbərlik şöbəsi və ya MM və hərbi səfərbərlik şöbələri) məlumatlandırılmalıdır.
- Həmin şəxslərin ofisə gəldiyi zaman maska taxması arzuolunandır.
- Siz əllərinizi dərhal dezinfeksiya etməli və olduğunuz müddət ərzində 2 metr təhlükəsizlik məsafəsinin saxlanmasına əməl etməlisiniz.

- Ekologiya İdarəsinin Gigiyena və Epidemiologiya Mərkəzinin tibb personalı Baş ofisdə çalışan bütün işçilərin və SOCAR TOWER-ə gələn qonaqların inzibati binanın girişində bədən temperaturunu ölçəcək və sizdən bəyannamə formasının doldurulmasını tələb edəcək. Sizdə qrip və ya zökəmə bənzər simptomlar aşkar edildikdə, yaxud 37$^{o}$ C dərəcədən yuxarı temperaturunuz olduqda ofisə daxil olmağınıza icazə verilməyəcəkdir.
- Mühafizə səddini keçməzdən əvvəl siz yenidən əllərinizi dezinfeksiya etməlisiniz.
- Liftdən istifadə. Bir dəfəyə ancaq iki şəxs liftdən istifadə edə bilər.
- Pilləkənlərdən istifadə edərkən məhəccərə toxunmusunuzsa, iş otağınıza daxil olduqda və ya ofisi tərk edərkən əllərinizi dezinfeksiya etməlisiniz.

**Qeyd.**

1) **Covid-19-un yayılmasının qarşısını almaq üçün birdəfəlik rezin əlcəklərdən istifadə olunması ilə bağlı hər hansı tövsiyə yoxdur. Rezin əlcəklərdən istifadə sizdə təhlükəsiz olmağınız barədə yanlış təsəvvür yarada bilər.** Əlcək geyinmək əvəzinə əllərinizi tez-tez yumaq daha tövsiyə olunandır.
2) **Ofisə çatdırılan bütün sənədlər ayrı bir qutuya qoyulmalı və bütün sənədlər dezinfeksiya edildikdən sonra sənədləri təhvil alan şəxs tərəfindən götürülməlidir.**

## 4.2 ŞƏXSİ İŞ SAHƏSİ

İşçilərin və qonaqların toxunduğu səthlər çirklənmiş səthlər hesab olunur və COVID-19–un yayılması riskini yaradır. Buna görə də aşağıdakıları etməlisiniz:

- Günün əvvəlində tez-tez toxunacağınız yerləri, məsələn masanı, telefonu, mobil telefonu, klaviaturaları və mausunuzu silin.
- Əmin olun ki, iş sahənizdə üz maskanız var (N95 maskasındansa adi cərrahi maskaya üstünlük verin).
- Əl dezinfeksiyaedici vasitəni masanızın üstündə saxlayın.
- Zərurət yaranmadıqca digər iş yoldaşlarınızla bir yerə toplanmayın və onlarla elektron əlaqə vasitələri ilə əlaqə saxlayın.
- Zəruri hallarda bir yerə toplanmaq lazım olarsa, mütləq 2 metrlik ara məsafəsinin saxlanmasına riayət edin.
- struktur bölmə rəhbərləri iş otağında işçilərin sayını minimuma endirmək məqsədilə və minimum 2 metrlik məsafənin gözlənilməsini təmin etmək üçün işə çıxması zəruri olan işçilərin siyahısını və ya növbəlilik rejimi ilə işçilərin işə çıxarılmasını müəyyən etməli və aidiyyəti struktur bölməyə bu haqda məlumat verməlidir.

## 4.3 ÜMUMİ İŞ SAHƏLƏRİ

İşçilərin və qonaqların toxunduğu səthlər çirklənmiş səthlər hesab olunduğu üçün COVID-19 –un yayılması riskini artırır. Buna görə də aşağıdakıları etməlisiniz:

- Qəhvə fincanları və şəhər telefonları, eləcə də qapı dəstəkləri, lift düymələri və işıq açarları kimi ümumi istifadədə olan əşyalar bir çox xəstəliyə səbəb olan parazitləri özündə saxlaya bildiyi üçün əllərinizi tez-tez yuyun.

- Siz əllərinizi, xüsusən tualetdən istifadə etdikdən sonra, yeməkdən əvvəl, burnunuzu sildikdən, öskürdükdən və ya asqırdıqdan sonra, isti su və sabunla ən azı 30 saniyə yumalısınız.
- Əl təmizləyici dispenserlər iş yerində görünən yerlərdə olmalı, dispenserlər mütəmadi olaraq yoxlanılmalı və doldurulmalıdır.

4.4 OFİSİN DEZİNFEKSİYASI

- Qəbul otağı və inzibati binanın giriş mərtəbəsinin döşəməsi hər saat xüsusi dezinfeksiyaedici məhlul ilə təmizlənməlidir.
- Bütün ofis həftədə iki dəfə dezinfeksiya olunmalıdır.
- İşçilər 4.2-ci bənddə göstərilmiş qaydada öz iş sahələrini dezinfeksiya etməlidirlər.

4.5 İCLASA DAİR TƏLƏBLƏR

- Təşkilatçı üzbəüz görüşün və ya tədbirin keçirilməsinin lazım olub-olmadığını nəzərdən keçirməli, mümkün olduğu təqdirdə telekonfrans və ya onlayn görüş təşkil etməlidir.
- Təşkilatçı iştirakçıların siyahısını nəzərdən keçirməli və iştirakçılarının sayını azaltmaq üçün tədbirin miqyasını azaltmalıdır.
- İclas otağına daxil olmazdan əvvəl əlinizi dezinfeksiya etməli və bütün iclas müddətində təhlükəsiz 2 metr məsafə saxlanılması qaydasına əməl etməlisiniz.
- Təşkilatçı iştirakçıların sağlamlıq vəziyyətinə diqqət etməli, əgər qrip və ya zökəm əlamətləri olarsa, həmin şəxs otağı tərk etməlidir.
- Bütün iştirakçıların adlarını və əlaqə məlumatlarını ən azı bir ay saxlayın. Bu, bir və ya bir neçə iştirakçı tədbirdən qısa müddət sonra xəstələnərsə, dövlət səhiyyə orqanlarına COVID-19 təhlükəsinə məruz qalmış insanları tapmağa kömək edəcəkdir.

4.6 YEMƏKXANA və ONDAN İSTİFADƏYƏ DAİR TƏLƏBLƏR

- Yeməkxana üzrə məsul olan şəxs hər gün nahar vaxtından əvvəl və nahar bitdikdən sonra yeməkxananın döşəmələrinin, qapılarının, stol və stulların, yeməklərin paylandığı vitrinin dezinfeksiyaedici məhlullarla təmizlənməsinə nəzarət etməlidir.
- Yeməkxana rəhbərliyi bilavasitə yeməkxanada çalışan şəxslərin maska və əlcəkdən (mütləq deyil) istifadə etməsini təmin etməlidir.
- Yeməkxananın girişində dezinfeksiya edici məhlullar olan aparat qurşdırılmalı və ya əl yumaq üçün sabun və su ilə təchiz edilmiş yerlər olmalıdır.
- Yeməkxana növbətçisi tərəfindən yeməkxanaya gələn şəxslərin içəri daxil olmazdan əvvəl əllərini sabunla təmiz yuduqlarına və ya dezinfeksiya edici məhlullardan istifadə etməklərinə nəzarət edilməlidir.
- Nahar vaxtı sıxlığın aradan qaldırılması məqsədilə struktur bölmə rəhbərləri öz aralarında razılaşdırmaqla işçilərini növbə ilə yeməkxanaya buraxmalıdır. İşçilər mümkün olduğu dərəcə tez bir zamanda nahar etməyini yekunlaşdırıb yeməkxanadan ayrılmalıdırlar.
- Yeməkxana növbətçisi yemək növbəsi zamanı, eyni zamanda yemək yeyərkən əyləşdikləri masalarda işçilər tərəfindən 2 metrlik ara məsafəsinin gözlənilməsinə nəzarət etməlidirlər. İşçilərin üzbəüz oturmasına və bir yerə toplanmasına icazə verilməməlidir.

4.7 CAVAB PLANI

- özünü pis hiss edən və ya simptomları olan şəxs müəyyən edildikdə ilk yardımçı və ya struktur bölmə rəhbəri onu etibarlı şəkildə təcrid oluna biləcəyi yerə yerləşdirməlidir.
- SOCAR-ın tibb təminatçısı "**Paşa sığorta" ASC** həmin şəxsi təhlükəsiz şəraitdə müvafiq tibb müəssisəsinə aparmalıdır. Qonaqlar üstünlük verdikləri səhiyyə müəssisələri və əlaqə məlumatları barədə məlumat bildirə bilərlər.
- Əgər iclas iştirakçısı, iclası idarə edən şəxs (işçi), iclas zalında texniki dəstək olan İnformasiya Texnologiyaları və Rabitə İdarəsinin texniki xidmət personalının COVİD-19 testi müsbət nəticələnibsə, imzalanmış qeydiyyat kitabı təhlükə altında ola biləcək şəxsləri müəyyən etmək üçün istifadə olunacaqdır. Onlar özünü təcrid etməli, yaxud sağlamlıq vəziyyətini müəyyən etmək üçün test olunmalıdır.

4.8 İNTİZAM TƏDBİRLƏRİ

- Proqramda öz əksini yatmış tələblər işçi tərəfindən yerinə yetirilmədikdə, Əmək Məcəlləsinin müddəalarına müvafiq olaraq həmin işçiyə intizam tədbirləri tətbiq ediləcəkdir.

## 5.0 QEYDLƏR

| QEYD | SAXLAMA MÜDDƏTİ | MƏSUL ŞƏXS/SAXLANMA YERİ |
|---|---|---|
| FRM-BDP-003 | 2 il | Arxiv cildcisi/Arxiv İdarəsi |

## 6.0 ƏLAVƏLƏR

6.1 ƏLAVƏ A TEMPERATUR TESTI

6.2 ƏLAVƏ B Maskadan Istifadəyə Dair Təlimatlar

ƏLAVƏ A

Hərarətin ölçülməsi zamanı, personal əks tərəflərə baxmalıdır ki, infeksiyanın yayılmasına rəvac verilməsin.

Hərarəti ölçən personal hər yoxlamadan sonra əllərini və avadanlığı dezinfeksiya etməlidir.

ƏLAVƏ B

Maskadan istifadəyə dair təlimatlar

- Maskanı taxmazdan öncə, əllərinizi sabun və su ilə yuyun və ya spirt ilə dezinfeksiya edin.
- Maskanın ağız və burnu tam olaraq örtməsinə, üzünüzlə maska arasında boşluğun olmamasına əmin olun
- Maskanı istifadə edərkən ona toxunmayın. Əgər toxunsanız, əllərinizi sabun və su ilə yuyun və ya spirt ilə dezinfeksiya edin.
- Maska daxildən içəri tərəfdən və ya xaricdən (xarici təmas yolu ilə) islanarsa və ya 3 saatdan artıq istifadə edilərsə, təzəsi ilə dəyişin.
- Maskanı nəm olduqdan sonra yenisi ilə əvəz edin və birdəfəlik istifadə olunan maskalardan təkrar istifadə etməyin.

- Maskanın ön hissəsinə toxunmadan onu arxa tərəfindən çıxarmaq lazımdır. Dərhal paketə qoyaraq atdıqdan sonra əlləri sabun və su ilə 30 saniyə yuyun və ya spirt ilə dezinfeksiya edin.

**D. HELİKOPTER ÜZRƏ TƏLƏBLƏR (DƏNİZƏ SƏFƏR)**

**1 MƏQSƏD**

1.1 Heyətin heliportdan helikopterlərlə daşınması üzrə Şirkətin tələblərini ətraflı müəyyənləşdirmək və açıq dənizdə çalışan işçi qüvvəsinin qorunmasını və Koronavirusun yayılması dövründə biznesin davamlılığının saxlanmasını təmin etmək.

1.2 Şirkət səfərdən öncəki 14 gündə dənizə səfər edən bütün heyətin karantin şəraitində saxlanılmaqla nəzarətdə saxlanılmasını tələb edir. Bu dövrdən sonra tibbi qiymətləndirmə uğurlu olarsa (Əlavə A) və bu dövr ərzində heç bir simptom aşkar edilməzsə (Əlavə B), heyətin qurğuya göndərilməsinə icazə veriləcək.

1.3 Səfər prosesi zamanı 14 günlük karantini keçən heyəti xarici COVID-19 infeksiyalarından qorumaq üçün Şirkət Heliport şəraiti və Helikopterlər üzrə qaydalar müəyyən etmişdir.

1.4 Qanunvericilik

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq:

Gigiyena və karantin rejiminin pozulmasına görə fiziki şəxslər 100 manatdan 200 manata qədər, vəzifəli şəxslər 1500 manatdan 2000 manata qədər, hüquqi şəxslər 2000 manatdan 5000 manata qədər cərimə edilir.
Bundan başqa xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir aylıq inzibati həbs cəzası da tətbiq edilə bilər.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq:

Epidemiya əleyhinə, sanitar-gigiyena və karantin rejimlərinin pozulması xəstəliklərin yayılmasına səbəb olduqda və ya xəstəliklərin yayılması üçün real təhlükə yaratdıqda şəxs 2500 manatdan 5000 manatadək cərimə və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni zamanda, SOCAR rəhbərliyi tərəfindən verilmiş əmrlər və tabe müəssisələrə göndərilmiş telefonoqramlardakı göstərişlərə əsasən SOCAR əməkdaşları karantin rejiminin pozulması haqqında qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə cəlb olunduqda, bu hallar işəgötürən tərəfindən ciddi araşdırılmalı və həmin əməllərin onlara verilən hüquqlardan əsassız istifadə olunmaqla törədildiyi müəyyən edildikdə, həmin şəxslərin əməli eyni zamanda əmək intizamının pozulması kimi qiymətləndiriləcək və onlara qarşı ən ciddi intizam tədbirləri görüləcəkdir.

**2.0 TƏTBİQ DAİRƏSİ**

2.1 SOCAR-ın yoxlama prosesindən keçən və müvafiq iş yerlərinə gedən işçilərinə və Heliport heyəti üzrə tətbiq edilir.

**3.0 CAVABDEHLİK**

3.1 Yoxlama prosesinə cəlb edilən qurumların baş mühəndislərinin vəzifəsidir ki, həm dəniz, həm də quruda biznesin dayanıqlı fəaliyyətinin təmin edilməsi üçün zərurri olan texniki dəstək və resursları təmin etsin. İşin aparılmasına cəlb edilən bütün podratçılar prosedur qaydaları barədə məlumatlandırılsın.

3.2 Platforma/özül və ya sahə rəisinin müavinlərinin vəzifəsidir ki, SOCAR və onun podratçılarının eyni idarə edilən və nəzarət olunan karantin şəraitinə sahib olmasını yoxlasın.

3.7 Növbə dəyişikliyinə məsul olan şəxsin vəzifəsidir ki, heliportda heyət dəyişikliyinə tətbiq olunan tələblər barədə bütün işçiləri xəbərdar etsin.

3.8 Təchizat şöbəsinin rəhbərinin və əməkdaşlarının vəzifəsidir ki, bu prosedurdakı tələblər barədə podratçıları xəbərdar etsin.

## 4.0 PROSEDUR

Heliportun şəraitinin hazırki prosedura uyğunluğu SOCAR-ın nümayəndəsi tərəfindən yoxlanılmadan və SOCAR tərəfindən təsdiq olunmadan, SOCAR müvafiq iş obyektləri üzrə heyət dəyişikliyi ilə əlaqədar heç bir helikopterin heliportdan uçmasına icazə verilməyəcəkdir.

### 4.1 FƏRDİ DAVRANIŞ / GİGİYENA

Heliportda olan bütün əməkdaşlar lazımi gigiyena qaydalarına riayət etməlidirlər:

- Hər hansı şəxslə aranızda təhlükəsiz məsafə saxlayın (ən azı 3 metr);
- Əl ilə görüşməyin / dərinin digər şəxsin dərisiylə təmasından uzaq durun;
- Gözlərinizə, burnunuza və ağzınıza toxunmayın;
- Şəxsi maskalara toxunmayın;
- Şəxsi əşyalarınızı başqaları ilə paylaşmayın;
- Əllərinizi tez-tez yuyun / dezinfeksiya edin.

### 4.2. HELİPORT İŞÇİLƏRİ ÜÇÜN TƏLƏBLƏR

SOCAR əmin olmalıdır ki, Heliport işçiləri aşağıdakı qaydalara riayət edirlər:

- Heyət dəyişikliyi transferləri zamanı bu şəxsin qoruyucu vasitələri geyinməsi- birdəfəlik tam örtük, maskalar, qaloş, eynək;
- Təhlükəsizlik işçisi hər bir fərdin üzərində baxış keçirmək üçün steril birdəfəlik əlcəkdən istifadə edəcək və istifadədən dərhal sonra əlcəyi atacaq;
- Özünüzlə başqaları arasında təhlükəsiz məsafə (ən azı 2 metr) saxlamağa çalışmaq;
- Əl ilə görüşməyin / dərinin digər şəxsin dərisiylə təmasından uzaq durun;
- Gözlərinizə, burnunuza və ağzınıza toxunmayın, şəxsi maskalara toxunmayın;
- Əllərinizi tez-tez yuyun / dezinfeksiya edin;
- Mümkün olduqca nağd puldan istifadə etməyin. Mümkün olduqca məsafədən plastik kart ödəməsindən və digər ödəmə üsullarından istifadə edin;
- Azərbaycandan kənara və Bakıdan kənar regionlara şəxsi səfərləri ləğv edin;
- Qrip və ya soyuqdəyməyə bənzər simptomlarınız varsa, evdə qalın;
- Bir ev paylaşdığı ailə üzvünün testi pozitiv çıxmış və ya yoxlamada olan şəxslərlə vaxt keçirmişsə, bu barədə rəhbərliyi xəbərdar etmək. Bu halda belə məlumat SOCAR-ın müvafiq

nümayəndəsinə məruzə edilməlidir;
- İşçilərdən vəziyyətlərinin şəxsi termometrlərdən istifadə etməklə nəzarətdə saxlamaq və özünü qiymətləndirmə anketini doldurub təqdim etmək tələb olunur;
- Heliporta gələn hər bir şəxs girişdə bu işə məsul heliport işçisi tərəfindən yoxlanılacaq. Yoxlama zamanı işçilər aralarında təhlükəsiz məsafə saxlamalı və maska geyinilməlidir;
- Heliportda bütün heyət transferi prosesi ərzində maskalar, əl dezinfeksiya edici məhlullar və qaloşlar mövcud olmalıdır.

4.8 Heliport Təsislərinin Dezinfeksiyası

Karantindən keçmiş SOCAR işçilərinə COVID-19 virusunun yoluxması riskini azaltmaq üçün ciddi dezinfeksiya qaydaları tətbiq olunmalıdır.

SOCAR aşağıdakı ərazilərin dezinfeksiya məhsulu ilə dezinfeksiya edilməsindən əmin olmalıdır:

- SOCAR işçilərinin yüklərinin yoxlanılmasından dərhal əvvəl yoxlama avadanlığının bütün səthləri;
- SOCAR qurğularına uçuşlar üçün qəbuldan dərhal əvvəl;
- Gözləmə terminalındakı oturacaqlar;
- Video brifinq otaqlarındakı oturacaqlar;
- Gəlmə terminalındakı oturacaqlar və konveyerlər;
- Qəbul masası, SOCAR işçilərinin yüklərinin çəkildiyi tərəzi və agentlər tərəfindən istifadə edilən kompüter;
- SOCAR işçilərinin yüklərini daşıyan konveyerlər;
- Terminaldan helikopterə işçilərin yüklərini daşıyan vaqonlar;
- Bütün daxili və xarici qapı tutacaqları;
- Tibbi otaq və daxilindəki bütün əşyalar, o cümlədən qapı tutacaqları;
- Sağ qalma geyimləri və xilas gödəkçələri;
- Yanğınsöndürmə və ilkin yardım avadanlığı.
- Çay və kofe əraziləri bağlanmalı və izolyasiya edilməlidir;
- Yeməkana əraziləri bağlanmalı və yalnız vaxtı uzanmış uçuşlar olduqda sendviçlər verilə bilər.

4.9 Heliport Avtobus Dezinfeksiyası

Aşağıdakı hissələr dezinfeksiya məhsulu ilə dezinfeksiya edilməlidir:
- Sürücü kabini, yəni sürahi, panel, ötürücü
- Döşəmə
- Panellər, o cümlədən yanlar, başüstü və yük yerləri
- Pəncərələr
- Daxili və xarici tutacaqlar
- Oturacaq kəmərləri və toqqaları
- Oturacaqlar və oturacaq üzləri
- İlkin yardım çantaları və yanğın söndürmə vasitələri

- Sürücü və digər avtobusdakı heliport heyəti SOCAR heyətinin transferindən dərhal əvvəl yeni maska, birdəfəlik tam geyim geyinməli və avtobus daxilindəki dezinfeksiyaedici ilə əllərini dezinfeksiya etməlidir. Avtobusda dezinfeksiya məhlulu olmalıdır.
- Personalı heliporta aparan sürücülər qoruyucu geyimlərdə olmalı, maska taxmalıdır.

4.10 Helikopterin Dezinfeksiyası

Mövcud operator prosedurlarına uyğun olaraq dezinfeksiyadan əvvəl helikopterin içərisi təmizlənməlidir. Operator helikopterin ən azı sutkada bir dəfə təmizlənməsindən və dezinfeksiya edilməsindən əmin olmalıdır. Tibbi heyətin epidemioloji qiymətləndirməsinə uyğun olaraq, Hava Ambulansı və HEMS Operatorulları üçün təmizliyin tezliyində dəyişikliklər edilə bilər.

Daha yaxşı istifadəni təmin etmək üçün mümkün olduqca hər bir daxili əşyalar, o cümlədən oturacaq yastıqları, qoruyucu örtüklər, pərdələr, kabinetlər və avadanlıq götürülməlidir. Götürülmüş avadanlıq müvafiq istehsalçının təlimatlarına (varsa) və ya ümumi qəbul olunmuş prosedurlara uyğun olaraq dezinfeksiya edilməlidir.

Materialların steril qalmasını təmin etmək üçün dezinfeksiya məhsulları öncədən məhlulu hazırlanmış silgilərdən istifadə etməklə (fırçala və sil texnikası) tətbiq edilməlidir. Dezinfeksiyaedicilər helikopterin quraşdırılmış daxili və xarici tutacaqları üzərində tətbiq edilə bilər, o cümlədən:

- Örtüklər
- Döşəmə
- Panellər, o cümlədən yanlar, baş üstü və yükləmə yerləri
- Pəncərələr
- Daxili və xarici tutacaqlar
- Oturacaq kəmərlərinin toqqaları (kəmər torlarına aid deyil)
- Oturacaqlar və oturacaq örtükləri
- Tibbi avadanlıq
- Tibbi saxlayıcı
- Uzadıcı platform və uzadıcı (tutacaqlar və səthlər)
- Qapı tutacaqları daxili/xarici

Dezinfeksiya zamanı ziyan vurmaqdan yayınmaq üçün aşağıdakıların qarşısını alın:

- Helikopterin daxilində spreyləmə, buxarlama və ya idarə edilməyən istifadə
- Gölməçə yaradılması və çatlaqların doldurulması
- Elektrik və ya elektronik hissələrlə əlaqə
- Pilot kabininin ekranı, uçuş alətləri və hər hansı avadanlıq ekranı üzərindəki şüşə örtüklərlə əlaqə. Belə dezinfeksiyaedici məhsullardan istifadə edən işçilər istehsalçının təhlükəsizlik tövsiyələrinə əməl etməli və müvafiq şəxsi qoruma avadanlığı geyinməlidir.

4.11 COVID-19 Anketi

Heyət dəyişikliyi prosesinə cəlb olunan bütün işçilərin siyahısı aidiyyəti struktur bölmənin rəhbərinə təqdim edilməlidir.

Heyət dəyişikliyi prosesinə cəlb olunan bütün işçilər Əlavə A-dakı COVID-19 sorğu anketini, FRM-BCP-001 doldurmalı və aidiyyəti qurumun rəhbərinə və ya onun razılığı və göstərişi əsasında həmin qurumun SƏTƏM üzrə mütəxəssisinə təqdim etməlidir.

4.7 İNTİZAM TƏDBİRİ

- Üzərinə düşən vəzifələrini yerinə yetirməyən və ya bu planda qeyd edilənlərə əhəmiyyət verməyən istənilən şəxs evə göndəriləcək, işdən çıxarılacaq və onun haqqında qanunamüvafiq tədbirlər görüləcəkdir.

4.8 YOXLANIŞ

- **Heliport təsisində SOCAR-ın müvafiq iş obyektlərinə uçuşların olduğu hər gün SOCAR-ın nümayəndəsi tərəfindən FRM-BDP-004 yoxlama siyahısı doldurulmaqla yoxlanış aparılacaqdır.**

## 5.0 SƏNƏDLƏR və ONLARIN SAXLANILMASI

| SƏNƏD | SAXLAMA MÜDDƏTİ | MƏSUL ŞƏXS/SAXLANMA YERİ |
|---|---|---|
| FRM-BCP-001 | 2 il | SƏTƏM üzrə mütəxəssis (konfidensial) |
| FRM-BCP-004 | 2 il | SƏTƏM üzrə mütəxəssis (konfidensial) |

**ƏLAVƏ A**

**COVID-19 ANKETİ**

| İşçinin ad və soyadı: | İşçinin tabel nömrəsi: | Vəzifə: |
|---|---|---|
| | | |

Aşağıdakı simptomlardan hər hansı biri hazırda sizdə varmı? Uyğun olan hamısının seçin:

| | | | |
|---|---|---|---|
| Qızdırma/Soyuqdəymə | | Öskürək | |
| Tənəffüs çatışmazlığı | | Nəfəs almada çətinlik | |
| Boğaz ağrısı | | Qarın işləmə | |
| Dad və qoxu bilmənin itməsi | | | |

| | |
|---|---|
| Son 14 gündə siz özünüz və ya yaxın qohumunuz/ailə üzvünüz Azərbaycandan kənarda başqa bir ölkəyə və ya Bakıdan kənara səyahət edibmi?<br><br>HƏ edibsə, aşağıda sakini olduğunuz və tranzit olaraq istifadə etdikləriniz də daxil olmaqla yeri/yerləri qeyd edin: | HƏ YOX |
| COVID-19 olan və ya bununla bağlı yoxlamada olan bir şəxslə<br><br>Yaxından əlaqəniz (ortaq yaşayış yeri və ya qayğı göstərmə) VƏ YA<br><br>Danışıq məsafəsində vaxt keçirdiyiniz (yoluxma önləmlərinə riayət edilməyibsə) olubmu? | HƏ YOX |

| | | |
|---|---|---|
| Bununla da təsdiq edirəm ki, SOCAR-ın Biznesin davamlılığı üzrə Planını oxudum və tanış oldum və burada verdiyim bütün məlumatlar doğrudur. | | |
| İmza: | Tarix: | |
| Əgər bu forma və Biznesin davamlılığı üzrə Plan sizə tərcüməçi tərəfindən təqdim edilibsə, tərcüməçinin adı və vəzifəsi göstərilməlidir; | | |
| Ad: | Vəzifə: | İmza: |

**QEYDLƏR.**

1. Bu anketin konfidensial olması qeyd edilməklə SƏTƏM üzrə mütəxəssisə göndərilməli və sənədə aidiyyəti olmayan digər şəxslərin buraxılışı qadağan olunmalıdır.

2. Şərait dəyişərsə, hazırki anket işçi tərəfindən yenidən tərtib edilməli və təqdim edilməlidir.

## E. NƏQLİYYAT VASİTƏLƏRİNƏ DAİR TƏLƏBLƏR

## 1.0 MƏQSƏD

1.1 Bu prosedurun məqsədi Covid-19 infeksiyasının yayılmasının qarşısını almaq üçün şirkətin nəqliyyat vasitələrinə tətbiq etdiyi qaydaları ətraflı şəkildə izah etməkdir.

## 2.0 ƏHATƏ DAİRƏSİ

2.2 SOCAR-ın rəhbər heyətini və işçilərini daşıyan bütün növ minik maşınları, avtobus və dənizdəki işçilərin köçürülməsi ilə əlaqəli istifadə edilən nəqliyyat vasitəsini idarə edən / nəqliyyat vasitəsində səyahət edən bütün işçilər üçün tətbiq olunur. Bura sifarişçi və bütün üçüncü tərəf nəqliyyat vasitələri də daxildir.

## 3.0 MƏSULİYYƏT

3.1 Bu proseduru ÜST-nın, SOCAR-ın bütün struktur bölmələrinin tibb təminatını müqavilə əsasında həyata keçirən **"Paşa sığorta" ASC** tərəfindən verilən qaydalara uyğun olaraq saxlamaq və personalın bu prosedura əməl etdiyini yoxlamaq Nəqliyyat İdarəsinin vəzifəsidir.

3.2 Nəqliyyat İdarəsi Təchizat İdarəsi və Daşımalara Nəzarət Departamenti ilə əlaqəli şəkildə çalışmalı və təmin etməlidir ki, hər bir nəqliyyat vasitəsində kifayət qədər istehlak ehtiyatı/məhlulu olsun.

3.3 Şirkətin nəqliyyat vasitəsindən istifadə edən / səyahət edən bütün işçilər bu qaydalara əməl etməli və əməl etməyənləri fəal şəkildə xəbərdar etməlidirlər.

## 4.0 PROSEDUR

4.1 ÜMUMİ

- Əl sanitayzerləri, salfetlər və maskalar şirkətin bütün nəqliyyat vasitələrində mövcud olmalıdır. Nəqliyyat vasitəsindəki ehtiyatları yoxlamaq və saxlamaq hər bir sürücünün borcudur.
- Bütün sürücülər nəqliyyat vasitəsinin daxilində və xaricində toxunulmuş səthləri təmizləməlidirlər:
  - Avtomobil açarları və breloklar
  - Qapı tutacaqları
  - Sükan
  - Ötürücü cihaz
  - Radio, GPS və digər düymələr və hissələr
  - Təhlükəsizlik kəmərləri, avtomobil oturacaqları
  - Mobil telefonlar
  - Səyahət fincanları/tutacaqlar
  - Əl dəstəkləri
- Çirkli hesab edilən səthlərin hamısı dezinfeksiya edilməzdən əvvəl sabun və su ilə təmizlənməlidir. Şirkətin təqdim etdiyi dezinfeksiya məhsullarından (Biosan Eco / Aniosgel 85 NPC) və ya digər

ekvivalent məhsullardan istifadə olunmalıdır. Nəqliyyat vasitəsi təmizləndikdən sonra əllər yuyulmalıdır.

- Məhsulla təmasın müddəti 1 dəqiqə olmalıdır və bu səthin təmizlənməsinin ümumi vaxtıdır. Təmas zamanı səth üstü nəm olmalıdır.
- Səthlərə toxunduqdan dərhal sonra əllərinizi yuyun:
  - Bilet avtomatları
  - Avtopark köşklərindən / bankomatlardan pul aldıqdan sonra.

4.2 HEYƏT DAŞIYAN AVTOBUS

- Sürücü 4.1-də göstərildiyi kimi hər heyət dəyişikliyindən əvvəl avtobusu təmizləməlidir.
- Avtobusa girməzdən əvvəl bütün sərnişinlər əllərini dezinfeksiya etməlidir.
- Sürücü sərnişin daşıyarkən üz maskası geyinməlidir.
- Qurğu personalının dəyişməsi ilə bağlı avtobusda gedən heyət aralarında ən azı bir yer boş saxlamaq şərtilə şahmət düzülüşü şəklində oturmalıdır.

4.3 ŞİRKƏT AVTOMOBİLLƏRİ

- Sürücü zəruri hallarda 4.1-də göstərilən qaydada nəqliyyat vasitəsini təmizləməlidir.
- Sürücü şirkət işçisi olmayan / ailənin üzvü olmayan sərnişin nəqliyyat vasitəsində gəzdikdən dərhal sonra nəqliyyat vasitəsini təmizləməlidir.

4.4 ŞİRKƏT AVTOMOBİLLƏRİ (Hava Limanına daşımalar)

- Sürücü 4.1-də göstərildiyi kimi nəqliyyat vasitəsini lazımi qaydada təmizləməlidir və hər dəfə hava limanına getdikdən sonra nəqliyyat vasitəsini dezinfeksiya etməlidir.
- Hava limanının terminalına girməzdən əvvəl qoruyucu maska geyilməlidir.
- Sürücü qarşılama qapısı qarşısında qruplardan uzaq durmalıdır.
- Heç kimlə əllə görüşməyin.
- Gələn sərnişinlər öz yükünü özü daşımalıdır.
- Sürücülər sərnişinlərə yüklərini yükləmə / boşaltma zamanı kömək edə bilər. Bundan sonra əl sanitayzeri ilə əllər dezinfeksiya olunmalıdır.
- Sərnişin öz yükünü özü aparmalıdır.
- Sərnişin nəqliyyat vasitəsində maska taxmalıdır (yalnız hava limanından gələrkən).
- Nəqliyyat vasitəsinə girməzdən əvvəl sürücü sərnişinlə sorğu-sual edərək sağlamlığını müəyyənləşdirməlidir. Sürücü narahatdırsa, sərnişindən səyahət zamanı maska taxmağı tələb edə bilər.
- Sərnişin yalnız arxa oturacaqda oturmalıdır.
- Yalnız ingilis dilində danışan sürücülər hava limanına getməlidir.

4.5 İNZİBATİ TƏDBİRLƏR

- Qoyulmuş qaydalara riayət etməyən və bu planda göstərilən nəzarət tədbirlərinə məhəl qoymayan hər kəs işdən azad edilmək də daxil olmaqla inzibati tənbeh tədbirlərinə məruz qala bilər.

## 5.0 QEYDİYYAT

| QEYD | SAXLAMA MÜDDƏTİ | MƏSULİYYƏT / YER |
|---|---|---|
| FRM-BCP-006 | 1 İl | Nəqliyyat İdarəsi |

**F. QONAQ EVLƏRİNİN GİGİYENA QAYDALARI**

## 1.0 MƏQSƏD

1.1 COVID-19 yayılmasının qarşını almaq üçün Şirkətin Qonaq Evləri üzrə qaydaları müəyyən etmək.

## 2.0 TƏTBİQ DAİRƏSİ

1.2 Yalnız SOCAR-ın Qonaq Evinlərinə baş çəkən və Qonaq Evlərində məskunlaşan işçilərə tətbiq olunur.

## 3.0 CAVABDEHLİK

3.1 Qurumun səlahiyyətli nümayəndəsinin (rəhbərin sosial məsələlər üzrə müavini və ya SƏTƏM üzrə mütəxəssis) vəzifəsidir ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) müəyyən etdiyi təlimatlara və tövsiyələrə uyğun olaraq prosedur qaydalarının mövcudluğunu təmin etsin, məskunlaşmış şəxslər tərəfindən bu prosedur qaydalarına əməl edilməsinə nəzarət etsin.

3.2 Qonaq Evinin rəhbərliyinin vəzifəsidir ki, COVID-19-un yayılmasının qarşısını almaq üçün tələb olunan gigiyenanı dəstəkləmək üçün lazım olan məhsullar saxlasın.

3.3 Qonaq Evlərində qalan bütün işçilərin vəzifəsidir ki, bu sənəddəki qaydalara əməl etsin.

3.4 Qonaq Evinin işçilərinin vəzifəsidir ki, bu sənəddəki bütün qaydalara əməl etsin.

## 4.0 PROSEDUR

4.1 QONAQ EVİNƏ GİRİŞ

- Bütün işçilər Qonaq Evinə daxil olarkən qurumun rəhbəri tərəfindən müəyyən edilmiş məsul şəxsə yoxlanılma üçün yaxınlaşmalıdır. Arzuolunandır ki, Qonaq Evində məskunlaşmaq üçün gələn şəxslər əvvəlcədən maska taxmış olsunlar. Qonaq Evinə daxil olmuş bütün şəxslər bir qayda olaraq ilkin mərhələdə və müəyyən olunmuş yerdə müvafiq maskalarla təmin ediləcəklər.

- Ayaqlarınıza baxil geyindikdən sonra təhlükəsizlik xidmətinin işçisinə yaxınlaşmalısınız.

- Dərhal əllərinizi dezinfeksiya etməli və giriş qeydiyyatı ərzində və birgə yerlərdən istifadə zamanı 2 metrlik təhlükəsizlik məsafəsini qoruyub saxlamalısınız.

- Ofis anketini imzalamaq üçün özünüzlə qələminizi gətirin. Əgər öz qələminiz yoxdursa, girişdəki qələmdən istifadə etməzdən öncə və sonra əllərinizi dezinfeksiya edin.

- Təhlükəsizlik xidmətinin işçisi temperaturunuzu yoxlayacaq və sizdən bəyan anketini doldurmağınızı tələb edəcək. Əgər qrip / soyuqdəyməyə oxşar simptomlarınız varsa və ya 37 selsidən çox temperaturunuz varsa, təhlükəsizlik xidmətinin əməkdaşı "Azneft" İB tərəfindən səlahiyyətləndirilmiş şəxsi bu barədə məlumatlandıracaq, o da öz növbəsində SOS ilə aranızda əvvəlcə telefon danışığını təşkil edəcək və əgər həkim tərəfindən müvafiq qərar verilərsə, dövlət ambulansı təşkil edəcək. Həmin vaxta qədər şəxs otağında təcrid edilməlidir.

- Liftə daxil olmazdan öncə əllərinizi dezinfeksiya etməlisiniz.

- Liftdən istifadə. Hər zaman liftdən yalnız bir nəfərin istifadəsinə icazə verilir.

- Pilləkənləri çıxarkən əl tutacaqlarından istifadə edirsinizsə, öz otağınıza gəldikdə və ya qəbul otağından ofisi tərk etdikdə əllərinizi dezinfeksiya etməlisiniz.

- QEYD: COVID-19-un yayılmasının qarşısının alınması üçün bir dəfəlik istifadə üçün nəzərdə tutulan əlcəklərdən istifadə etmək məsləhət görülmür. Belə əlcəkləri taxmaq sizi yanılda bilər. Ən yaxşı məsləhət belə əlcəkləri taxmamaq və əllərinizi mütəmadi olaraq yumaq və ya dezinfeksiya etməkdir.

- İlk ölçmədən 30-60 dəqiqə sonra ikinci ölçmə üçün qurumun rəhbəri tərəfindən bu işlərə məsul şəxs (bu işlərə cavabdehlik daşıyan şəxs) məlumatlandırılmalıdır. Hər iki ölçmə ad və soyad göstərilməklə Qonaq Evinin girişində müəyyən olunmuş yerdə qeydə alınmalıdır.

- Yalın əllərinizlə səthlərə toxunmayın, qapı tutacağı ilə əliniz arasında baryer qoyun, məsələn, yalın əllərinizlə infeksiyaya bulaşması mümkün olan səthlərə toxunmanı önləmək üçün salfet və ya əlcəkdən istifadə edin.

## 4.2 ŞƏXSİ OTAQLAR

Qonaqların, işçilərin və gələnlərin toxunduğu infeksiyalı səthlər COVID-19 yayılmasının əsas yollarından biridir. Ona görə də siz:

- Otaqlarınızı təmiz və gigiyenik saxlayın. Qonaq və təmizlikçilər (xadimələr) arasında virusun transferi riskini önləmək üçün Qonaq Evinin sakinləri otaqlarını özləri təmizləyəcəkdir. Təmizləmə məhsulları Şirkət tərəfindən təmin ediləcəkdir.

- Səhərlər və giriş zamanı tez-tez toxunacağınız oturacaq, telefon, mobil telefon, uzaqdan idarəedicilər, tutacaqlar kimi səthləri silin.

- Əmin olun ki, otağınızda üz maskaları (sadə cərrahi maskalar və ya daha yüksək keyfiyyətli maskalar) mövcuddur. Şirkətin Təchizat İdarəsindən və ya “Azneft” İB-nin Maddi Texniki Təchizat İdarəsindən lazımi sayda maska ilə sizi təmin etməyi xahiş edin.

- Otağınızda bir qab əl dezinfeksiyaedicisi saxlayın. Dezinfeksiyaedici Şirkət tərəfindən təmin ediləcəkdir.

## 4.3 ORTAQ TƏSİSLƏR

Qonaqların, işçilərin və gələnlərin toxunduğu infeksiyalı hesab edilən səthlər COVID-19 yayılmasının əsas yollarından biridir. Ona görə də siz:

- İdman zalındakı avadanlıq, liftdəki düymələr, o cümlədən qapı tutacaqları və işıq yandırıb-söndürənlər kimi ortaq qonaq evi əşyaları üzərində xəstəliyə səbəb olan biləcək infeksiyaların olma ehtimalına görə əllərinizi tez-tez yuyun.
- Sabunla və isti su ilə əllərinizi ən azı 30 saniyə yumağınız lazımdır, xüsusən də tualetə getdikdən sonra, yeməkdən əvvəl və burnunuzu sildikdən, öskürdükdən və ya asqırdıqdan sonra.
- Hovuzdan istifadə dayandırılmalıdır.
- Fitness otağı və sauna istifadə edilə bilər bu şərtlə ki, istifadə edən şəxs özündən əvvəl və sonra oranı dezinfeksiya etsin.

- Saunanı bir dəfəyə bir nəfər istifadə edə bilər.

4.4 TƏMİZLƏMƏ

- Qonaq Evinin içərisi və çölü perimetr böyunca həftədə iki dəfə dezinfeksiya ediləcək.
- İşçilər öz otaqlarını 4.2-yə uyğun olaraq təmiz saxlamalıdırlar.

4.5 ÇÖLDƏ GƏZMƏ

- Digər şəxslərlə minimum 2 metrlik məsafə saxlamağınız şərti ilə çöldə gəzməyə yalnız Qonaq Evinin həyətində icazə verilir. Qonaq Evində çox adam olduqda, eyni vaxtda çöldə çoxlu adamın olmasını önləmək üçün qonaqlar gəzmə vaxtlarını razılaşdırmalıdırlar. Təhlükəsizlik xidmətinin əməkdaşları (mühafizəçilər) həyətdə gəzənləri nəzarətdə saxlayacaqdır.

  Qonaq Evindən kənara getmək qadağandır. Nəyə zərurət varsa, Şirkətin Təchizat İdarəsindən və ya "Azneft" İB-nin Maddi Texniki Təchizat İdarəsindən tələb edilməlidir. Təchizat şöbəsi lazımi şeyləri alıb sürücüsü vasitəsi ilə qonaq evinə təhvil verəcək. Qonaq Evinin xidmət personalı alınmış əşyaları qonağın qapısının önünə qoyacaq, məskunlaşmış şəxs isə öz otağının qapısını açaraq çatdırılmış əşyanı götürəcək.

4.6 ƏRZAQ ÇATIDIRLMASI

Ərzaq yemək podratçısı tərəfindən kağız paketdə çatdırılacaq və qonağın qapısının çölünə qoyulacaq. Qonaq yeməyi götürəcək, yeməyi yedikdən sonra zibili otağın çölünə qoyacaq, qonaq evi işçiləri də zibili atmaq üçün götürəcək.

## 5.0 SƏNƏDLƏR VƏ ONLARIN SAXLANMASI

| SƏNƏD | SAXLAMA MÜDDƏTİ | MƏSUL ŞƏXS/SAXLANMA YERİ |
|---|---|---|
| FRM-BCP-002 | 2 il | Məskunlaşma sənədləri Qonaq Evinin rəhbəri tərəfindən müəyyən edilmiş şəxs tərəfindən qeyri-məxfi sənədlərin saxlanmasına qoyulan tələblər gözlənilməklə, rəhbərin və ya onun bu işlərin görülməsinə məsul etdiyi şəxsin iş otağı |

## 6.0 ƏLAVƏLƏR

6.1 ƏLAVƏ A TEMPERATUR TESTI
6.2 ƏLAVƏ B Maskadan Istifadəyə Dair Təlimatlar

ƏLAVƏ A

Hərarətin ölçülməsi zamanı, personal əks tərəflərə baxmalıdır ki, infeksiyanın yayılmasına rəvac verilməsin.

Hərarəti ölçən personal hər yoxlamadan sonra əllərini və avadanlığı dezinfeksiya etməlidir.

ƏLAVƏ B

Maskadan istifadəyə dair təlimatlar

- Maskanı taxmazdan öncə, əllərinizi sabun və su ilə yuyun və ya spirt ilə dezinfeksiya edin.
- Maskanın ağız və burnu tam olaraq örtdüyünə, üzünüzlə maska arasında boşluğun olmadığına əmin olun
- Maskanı istifadə edərkən ona toxunmayın. Əgər toxunsanız əllərinizi sabun və su ilə yuyun və ya spirt ilə dezinfeksiya edin.
- Maska daxildən (geyilən tərəfdən) və ya xaricdən (xarici təmas yolu ilə) islanarsa və ya 3 saatdan artiq istifadə edilərsə təzəsi ilə dəyişin.
- Maskanı nəm olduqdan sonra yenisi ilə əvəz edin və birdəfəlik istifadə olunan maskalardan təkrar istifadə etməyin.
- Maskanın ön hissəsinə toxunmadan arxa tərəfdən çıxarmaq lazımdır. Dərhal paketə qoyaraq atdıqdan sonra əlləri sabun və su ilə 30 saniyə yuyun və ya spirt ilə dezinfeksiya edin

ƏLAVƏ A QONAQ EVİ QEYDİYYAT KİTABI

**SOCAR-ın Qonaq Evinə Gələnlərin Siyahısı/SOCAR Guest House Visitors Log Book**

| Gələnin adı/ Visitor Name | Qızdırma/ Temperature | Virusa yoluxmuş insanla əlaqədə olmusunuz mu? / Have you been in contact with infected person? | Virusun əlamətlərini son 24 saatda aşkar etmisinizmi? / Have you had any symptoms of the virus in last 24 hours? | Son 28 gündə ziyarət olunmuş ölkələr / Visited countries in the last 28 days | Qonaq evinə girişiniz SOCAR rəhbərliyi tərəfindən təsdig olunubmu?/ Is your visit approved by SOCAR management? | Tarix, Vaxt/ Date, Time | İmza/ Signature |
|---|---|---|---|---|---|---|---|
| | | Hə / Yes<br><br>Yox / No | Hə / Yes<br><br>Yox / No | | | Date/Tarix: / /2020 Time in/Giriş Vaxtı: | |
| | | | | | | Date/Tarix: / /2020 Time out/Çıxış Vaxtı: | |
| | | Hə / Yes<br>Yox / No | Hə / Yes<br>Yox / No | | | Date/Tarix: / /2020 Time in/Giriş Vaxtı: | |
| | | | | | | Date/Tarix: / /2020 Time out/Çıxış Vaxtı: | |

## G. SOCAR ƏMƏLİYYAT SAHƏLƏRİNİN İŞÇİLƏRİ ÜÇÜN NƏZƏRDƏ TUTULAN COVID-19 SINAĞI KEÇİRİLMƏSİ QAYDASI

### 1.0 MƏQSƏD

1.1 COVID-19 testinin təşkil edilməsi üçün Şirkət prosedurunun müəyyən edilməsi.

1.2 Şirkətin tələbidir ki, dənizə səfər edən bütün işçilər, səfərdən əvvəl 14 gün müddətində SOCAR-ın karantin üçün müəyyən etdiyi binada müşahidə altında saxlanılmalı və COVID-19 testindən (və ya Əlavə A-da göstərilən variant C-yə əsasən daimi nəzarət altında saxlanılmalıdır) keçməlidir. Əgər test mənfi nəticələnərsə (və ya müvafiq olaraq heç bir simptom müşahidə olunmazsa), işçi iş yerinə gedə bilər.

1.3 Bundan əlavə, əgər bir işçi təsdiq olunmuş COVID-19 yoluxması olan və ya şübhəli simptomları olan biri ilə əlaqədə olduğunu bəyan edərsə, Şirkət və onun tabeliyində olan qurumun rəhbərliyi həmin işçi və bəzi hallarda onun yaxın ailə üzvləri üçün test təşkil olunmasına dəstək göstərəcək.

### 2.0 TƏTBİQ DAİRƏSİ

2.1 SOCAR-ıniş sahələrində işləyən və ya səfər edən və eyni zamanda son 28 gün ərzində ölkədən kənara çıxmamış işçilərə şamil olunur. Xaricdən gələn işçilər dövlət tərəfindən təşkil edilmiş karantin zonasında 14 gün ərzində mütləq karantində olacaq və onlara TƏBİB-in (Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi) protokoluna uyğun sınaqlar keçiriləcək.

### 3.0 CAVABDEHLİK

3.1 SOCAR-ın Təchizat İdrəsinin (qurumlarda müvafiq şöbələrin) vəzifəsidir ki, müvafiq əlaqələrlə COVID-19 testlərinin təşkilində dəstək göstərsin.

3.2 Struktur bölmə rəhbərinin vəzifəsidir ki, təsislərində COVID-19 testlərinin keçirilməsi üçün təmiz və dezinfeskiya olunmuş yer təşkil etsin.

3.3 İnsan resursları üzrə mütəxəssisin vəzifəsidir ki, COVID-19 testindən keçməli olan şəxslərin siyahısını təmin etsin və nəticələri qoruyub saxlasın.

3.4 Digər şöbə rəhbərlərinin / işçilərinin vəzifəsidir ki, bu planda müəyyənləşdirilmiş təlimatların tamamilə icra olunmasını və lazımi tədbirlərin görülməsini təmin etsinlər.

## 4 PROSEDUR

### 4.1 COVID-19 TESTLƏRİNİN TƏTBİQ EDİLƏCƏYİ İŞÇİLƏRİN TƏSDİQİ

- Qurumun növbə dəyişikliyinə cavabdeh təyin etdiyi şəxs dənizdə işə cəlb olunacaq və SOCAR-ın təşkil etdiyi karantin binasında 14 günlük karantin müddətini keçməli olan işçilərin siyahısını şəxsiyyətlərini təsdiq edən sənədlə birgə qurumun rəhbərininin müavininə göndərəcək.
- Qeyd edilən şəxslər hazırki prosedura əsasən COVİD-19 testlərindən (Əlavə A-da qeyd edilən variantlardan biri seçilməklə) keçirildikdən sonra dənizdə yerləşən iş yerlərinə buraxılacaqdır.

### 4.12 COVID-19 testlərinin təchiz edilməsi

- Testləri təchiz etməzdən qabaq struktur bölmə rəhbəri təmin edəcək ki, həmin yer dezinfeksiya edilsin.
- Test keçiriləndə struktur bölmənin rəhbəri təmin etməlidir ki, məkan dezinfeksiya edilib və həm testdən əvvəl, həm də sonra zəruri dəstək göstərilir.
- Əgər test olunmalı şəxslərin sayı 5-dən çoxdursa, struktur bölmənin rəhbəri onları bir yerə yığılmamaq üçün qrup halında testdən keçirəcək.
- Testlər bağlı otaqda aparılacaq və şəxslər testə bir-bir daxil olacaqlar.
- Simptomları olan şəxslər onların test nəticələri neqativ çıxana qədər digər şəxslərlə eyni otaqda olmayacaqlar.

### 4.13 NƏTİCƏLƏR

- Test nəticələri hazır olanda nəticələr qurumun növbənin dəyişdirilməsinə cavabdeh təyin etdiyi şəxsə göndəriləcək və test nəticələri müsbət çıxmış işçilər təcili tibbi yardım xidmətinə xəbər edilməklə dövlət tərəfindən müəyyən edilmiş müvafiq tibb müəssisəsində yerləşdiriləcəkdir.
- Qurumun rəhbəri (növbənin dəyişilməsinə cavabdeh təyin edilən şəxs) nəticələri İnsan resursları şöbəsində saxlanılması üçün müvafiq qaydada onlara verəcək.

## 5.0 Qeydiyyat

| Qeydiyyat | Saxlanma müddəti | Məsul/Yer |
|---|---|---|
| COVID-19 test nəticələri | 1 il | İnsan resursları şöbəsinin rəisi (Qovluq / Şəxsi sənədlər) |

## 6.0 ƏLAVƏLƏR

6.1 Əlavə A – COVİD-19 Test prosedurları və keçirilmə qaydaları

**Əlavə A**

**COVİD-19 Test prosedurları və keçirilmə qaydaları**

1.1 COVID-19 sınağı aşağıdakı iki kateqoriyalara bölünür:

- Polimeraz zəncir reaksiyası (PZR) sınağı - bilavasitə virusun genetik materialını axtarır
- Immunoloji sınaq- bədənin COVID 19 virusuna immunoloji cavabını axtarır

Sınaqlar SOCAR-ın Baş ofisinin İşçilərə tibbi xidmətin təşkilinə nəzarət şöbəsinin mütəxəssisləri, TƏBİB-in İdarə heyəti ilə razılaşdırılmaqla qarşılıqlı fəaliyyət planına müvafiq olaraq bu sahə üzrə ixtisaslaşdırılmış (sertifikatlaşdırılmış) həkim və tibb bacılarından ibarət qrup tərəfindən aparılır.

1.2 COVID-19 Antibody Rapid Test immunoloji sürətli sınağın xüsusiyyətləri aşağıdakılardır:

- Nümunə- barmaqdan götürülən qan
- Götürülmə vaxtı- təxminən 3 dəq.
- Nəticə üçün vaxt – 15-20 dəq.

1.3 COVID-19 PZR (Polimeraz zəncir reaksiyası) sınağın xüsusiyyəti:

Əsnək, burun və ya boğazdan götürülən yaxmanın daha sonra laboratoriya şəraitində işlənilməsi və analizi.

Vacib Qeyd: Bütün işçilər SOCAR əməliyyat ərazisinə girməzdən əvvəl 14 gün müddətində şirkətin nəzarəti altında olan karantin zonasında qalmalıdırlar.

1.4 İşçilərdə yoluxmanın müəyyən edilməsi məqsədilə aşağıdakı variantlardan biri seçilməklə, SOCAR-ın Baş ofisinin İşçilərə tibbi xidmətin təşkilinə nəzarət şöbəsinin mütəxəssislərinin və qurum rəhbərinin müəyyən etdiyi şəxsin iştirakı ilə, SOCAR-ın bütün qurumlarına tibb təminatını müqavilə əsasında həyata keçirən "Paşa Sığorta" ASC tərəfindən müəyyən edilmiş xüsusiləşdirilmiş tibb müəssisəsinin tibb personalının cəlb edilməsi ilə sınaq aparılacaqdır:

**Variant A: immunoloji və PZR sınaqları birlikdə keçirilməklə:**

- İşçi karantin zonasına gəldikdə tibbi sorğu vərəqəsi doldurulur və bədən hərarəti ölçülür
- Karantin zonasına daxil olarkən immunoloji sürətli sınaq keçirilir
- 5-ci gündə PZR sınaqı keçirilir (cavab 2-3 günə hazır olur)

- PZR sınağı mənfi çıxırsa və işçi, heç bir əlamət qeyd olunmadığı halda, işə buraxılır
- Daha bir immunoloji sınaq 7-ci gündə tibbi göstəriş olduğu halda keçirilə bilər

**Variant B: Yalnız PZR sınağı keçirilir:**

- İşçi karantin zonasına gəldikdə tibbi sorğu vərəqəsi doldurulur və bədən hərarəti ölçülür
- 7 gün ərzində karantin zonasında səhər və axşam bədən hərarəti ölçülür və tibb bacıları tərəfindən qeydə alınır.
- 5-ci gündə PZR sınağı keçirilir (cavab 2-3 günə hazır olur)
- PZR sınağı mənfi çıxırsa və işçi, heç bir əlamət qeyd olunmadığı halda, işə buraxılır

**Variant C: Heç bir sınaq keçirilmir və sadəcə daimi müşahidə və nəzarət aparılır:**

- İşçi karantin zonasına gəldikdə tibbi sorğu vərəqəsi doldurulur və bədən hərarəti ölçülür.
- 14 gün ərzində karantin zonasında səhər və axşam bədən hərarəti ölçülür və tibb bacıları tərəfindən qeydə alınır.
- 14 günlük müşahidə nəticələri həkim tərəfindən yoxlanılır və işçi, heç bir əlamət qeyd olunmadığı halda, işə buraxılır. Bu variantda infeksiyanın riski üzərində nəzarət tam 28 gün müddəti əsasında aparılır.

1.5 Sınaq nəticələri

Müsbət Covid-19 immunoloji sürətli sınaq nəticəsi olanların dəniz əməliyyat sahələrində, həmçinin qurudakı əməliyyat sahələrində işə başlamasına icazə verilməyəcəkdir. Onlar COVİD-19 PZR sınağı üçün müvafiq klinikaya göndəriləcəklər. COVİD-19 diaqnozu təsdiqlənmiş xəstələr üçün SOCAR əməliyyat sahələrinə giriş TƏBİB protokoluna uyqun olaraq tam sağalmayadək bağlı qalacaq.

1.6 Digər hallarda sınaqlar

SOCAR əməliyyat sahələrinin tibb məntəqələrində tibbi göstəriş olduğu halda immunoloji sınaqlar aparılacaq.

Aşağıda göstərilən fəaliyyətlərə cəlb olunan əməkdaşlar vaxtaşırı sınaqlardan keçiriləcəklər:

- Karantin zonalarında işin təşkili və xidmət
- Şəxsi heyətinin daşınması və logistika işləri
- İş sahələrinə qedən heyətin qeydiyyatı, tibbi müayinəsi və təhlükəsizliyin təşkili

1.7 Qeyri-müntəzəm cədvəl ilə işləyən mütəxəssislər üçün qeyd:

Qeyri-müntəzəm cədvəl ilə işləyən mütəxəssislər fərdi şəkildə qiymətləndiriləcək və onlara iş sahəsinə getməmişdən 3 gün əvvəl PZR sınağı keçiriləcək.